www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 yanvar 2018-ci il Cümə № 13 (6902) Qiyməti 60 qəpik

Xəbər

**Bakteriya tapılan uşaq qidaları paytaxt mağazalarında**

yazısı səh.14-də

# QUDALARIN "İKİNCİ BAŞI" DA HƏBSƏ GEDİR-

# ELDAR MAHMUDOV ÜÇQAT ATƏŞ ALTINDA

Cahangir Hacıyevin yaxın adamlarından hesab olunan Emin Sadiqin saxlanılmasından sonra sabiq nazirin ortağının da həbsi xəbəri yayıldı; Eldar Mahmudov üçün «əcəl zəngi»...




yazısı səh.7-də

## Gündəm

**Prezidentdən itkin düşən alpinistlərlə bağlı tapşırıq-Abid Şərifov açıqladı**



Baş nazirin müavini 20 gündən artıqdır davam edən axtarışların dövlət başçısının nəzarətində olduğunu dedi; "Cənab prezidentin göstərişi və razılığı olmadan..."

yazısı səh.4-də

**Ələddinin "sehirli" əməlləri - "Daşkəsən Filizsaflaşdırma"nı dağıdan əllər - reportaj**

yazısı səh.3-də

**Rusiya və NATO generalının Bakı görüşü reallaşır - son hazırlıqlar**

yazısı səh.5-də

**Ərəb pullarının Bakıya yolu açılır-təfərrüat**

yazısı səh.4-də

**Manat möhkəmlənməyə doğru "üzür"**

yazısı səh.12-də

**Pensiyaçıların bankomat problemi**

yazısı səh.4-də

**Elmar Məmmədyarov niyə hesabat vermir?**

yazısı səh.11-də

**İnhisarçılar ərzaq məhsullarını yenə bahalaşdırır**

yazısı səh.12-də

**Trampın mediaya qarşı yeni savaşına bizimkilərin reaksiyası**

yazısı səh.11-də

**Güc strukturları dini ekstremizmə qarşı birləşdi**

yazısı səh.6-da

**ABŞ-ın yeni kürd dövləti planı: Raqqa paytaxt olacaq**

yazısı səh.10-da

**Hotel otağı və şantaj... - həbsdəki baş redaktorun məhkəmə işi**

yazısı səh.14-də

## İrəvanın İran "nəfəsliyi" kiçilir - baş nazirdən acı etiraf

Ermənistanın cənub qonşumuzla iqtisadi əlaqələri keçən il minimuma, yeni dəmiryolu layihəsi isə düyünə düşüb; **səbəblərdən danışan erməni baş nazir Karen Karapetyan:** "Yaxşılaşma o vaxt olacaq ki..."

yazısı səh.5-də



**20 Yanvarla bağlı arxivlərdə açılmayan sirlər-Sülhəddin Əkbər danışır**

yazısı səh.7-də



*İqbal Ağazadə:*

**"Mən adamlara şəxsi məsələlər üçün heç vaxt zəng vurmamışam"**

yazısı səh. 8 və 9-da



Siyavuş Novruzov

**YAP-dan prezident seçkisində ittifaq qurmaq açıqlaması**

yazısı səh.6-da



## İsa Qəmbər xəstəxanadan evə buraxılıb

**Parlamentin keçmiş sədri, Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbər yanvarın 18-də xəstəxanadan evə buraxılıb. APA-nın məlumatına görə, Mərkəzi Klinik Xəstəxananın kardioloqu, İsa Qəmbərin həkimi Firdovsi İbrahimov bildirib ki, İ. Qəmbərin səhhəti yaxşıdır, müalicəsini ev şəraitində davam etdirəcək.**

İsa Qəmbər klinikadan ayrılarkən onu müalicə edən tibbi personalla şəkil çəkdirib və sosial şəbəkədəki səhifəsində paylaşıb.

Xəstələnəndən bəri ilk statusunda paylaşdığı şəkil aşağıdakı sətirlərlə müşayiət olunub: "Mərkəzi Klinikadan ayrıldıq. Firdovsi həkim başda olmaqla, peşəkar, qayğıkeş həkim heyəti və bütün personala təşəkkürlər!"

❑ **Musavat.com**

## Siqareti tərgitmək istəyənlər oxusun...

**Bu il ilkin səhiyyə xidmətlərində tütündən imtina üzrə tibbi məsləhət kabinetlərinin yaradılması nəzərdə tutulub. Bu barədə Səhiyyə Nazirliyinin saytı məlumat yayıb.**

Kabinetin yaradılmasında məqsəd siqaretdən qurtulmaq istəyənlərə yardım göstərməkdir. Müraciət edənlərlə psixoloji iş aparılacaq.

Xatırladaq ki, belə kabinetlərin yaradılması "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunda əksini tapıb. Bundan əvvəl, Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) ambulator şöbəsinin nəzdində əhali üçün tütündən imtina üzrə tibbi məsləhət kabineti və xüsusi "qaynar xətt" yaradılmışdı. Kabinetdə siqaret çəkənlərin orqanizmində baş verən dəyişikliklər, siqaretin tərkibinə qatılan kimyəvi maddələr haqqında məlumatlar verilirdi, xüsusi vasitələrlə siqaretin cibə və ağciyərə vurduğu zərər hesablanırdı. Yeni yaradılacaq kabinetlərdə də əvvəlki təcrübədən istifadə ediləcək.

Onu da qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatı hər 6 saniyədə bir insanın siqaretdən dünyasını dəyişdiyini bildirir. Yəni hər il dünyada 6 milyon insan tütün tüstüsünün yaratdığı xəstəliklərdən dünyasını dəyişir. Bunun 10 faizi passiv tütün çəkmənin təsirindən ölənlərdir. Siqaret 70-90 faiz hallarda ağır xəstəliklərə gətirib çıxarır. Xüsusilə ağciyər, tənəffüs yolları, mədə, dil-dodaq xərçənginin yaranmasında siqaret səbəblərdən biridir.

Qanunda həmçinin tütün asılılığının və tütündən istifadə nəticəsində yaranan xəstəliklərin müalicəsinə yönəlmiş tibbi yardımın göstərilməsi də əksini tapıb.

## Qazaxıstanda dəhşətli avtobus qəzası: 52 nəfər diri-diri yandı

**Qazaxıstanın Aktübinsk vilayətində sərnişin avtobusunun yanması nəticəsində 50-dən çox insan həlak olub. Virtualaz.org bildirir ki, bu barədə "RİA Novosti" Qazaxıstan Fövqəladə Hallar Komitəsinə istinadla məlumat yayıb.**

Məlumata görə, yanan avtobusdan yalnız beş sərnişin çıxa bilib. Onlara tibbi yardım göstərilir. Qalan 52 nəfər hadisə yerində ölüb. Qəza yanvarın 18-də yerli vaxtla saat 10:30-da (Bakı vaxtı ilə saat 8:30) Samara-Çimkənt-İrgiz avtomobil trasında baş verib. Avtobusda 55 sərnişin və 2 sürücünün olduğu bildirilir.

## Türkiyənin Baş Qərargah rəisi Rusiyaya gedib

**Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Hulisi Akar Rusiyaya səfər edib. Virtualaz.org Türkiyə KİV-ə istinadən bildirir ki, onu Milli Kəşfiyyat Təşkilatının (MİT) rəhbəri Hakan Fidan müşayiət edir.**

H. Akarın rusiyalı həmkarı Valeri Gerasimovla görüşü nəzərdə tutulur.

Görüşdə regional təhlükəsizlik məsələlərinin, Suriyada baş verən son olayların və Astana-Cenevrə prosesinin müzakirə olunacağı gözlənilir.

# Dünya çempionunu öldürən azərbaycanlının atası sui-qəsdin qurbanı olub?

**Rusiya İstintaq Komitəsinin Xabarovsk əyaləti üzrə İstintaq İdarəsi pauerliftinq üzrə dünya və Avropa çempionu Andrey Draçovun qətlində təqsirli bilinən azərbaycanlı Anar Allahverənovun atasının ölümünün qisas olub-olmadığı araşdırır.**




APA-nın Rusiya bürosunun xəbərinə görə, bu barədə Rusiya İstintaq Komitəsinin Xabarovsk əyaləti üzrə İstintaq İdarəsinin yaydığı məlumatda bildirilir.

İstintaq İdarəsinin məlumatına görə, Əliyar Allahverənovun yol-nəqliyyat hadisəsi nəticəsində ölümü ilə bağlı açılmış cinayət işi çərçivəsində bütün versiyalar, o cümlədən qisas versiyası araşdırılır.

Məlumatda Ə. Allahverənovun ölümü ilə bağlı məsələnin əyalətin İstintaq İdarəsinin xüsusi işlər üzrə İstintaq Şöbəsi tərəfindən araşdırıldığı da vurğulanıb.

**Xabarovskdakı Azərbaycan icmasının rəhbəri Nəriman Şükürov isə APA-ya açıqlamasında Ə. Allahverənovun ölümü ilə bağlı bunları deyib:** "Yerli mətbuat baş vermiş hadisənin qisas olduğunu yazır. Lakin biz həm müstəntiqlərlə, həm də Anarın vəkilləri ilə danışdıq. Mərhum Əliyar Allahverənov səhər işə gedən zaman piyada keçidinin üstündə avtomobil tərəfindən vurulub. Hadisəni törədən şəxs hadisə yerindən qaçmayıb. O, hadisə yerinə polis çağırıb. Hazırda hüquq-mühafizə orqanları bu məsələni araşdırır".

**N. Şükürov Ə. Allahverənovun meyitinin morqda olduğunu söyləyib:** "Meyit ekspertizadan keçirilir, yaxın günlərdə ailəsinə təhvil veriləcək. Bundan sonra meyiti Azərbaycana, Yardımlı rayonuna göndərəcəyik".

**N. Şükürov Anar Allahverənovun atası ilə bağlı baş verənlərdən artıq xəbərdar olduğunu deyib:** "Anarın baş verənlərdən xəbəri var. Əlbəttə ki, onun üçün çox ağırdır. Xabarovskda onların qohum- əqrəbası yaşayır. Anarın əmisi, əmisi uşaqları hamısı burdadır. Biz də Azərbaycan icması olaraq əlimizdən gələn yardımı əsirgəməməyə çalışırıq".

**İcma rəhbəri Anar Allahverənovun cinayət işi ilə bağlı da danışıb:** "Anarın cinayət işi ictimai rezonans doğurduğundan onun barəsində cinayət maddəsi də bir qədər ağır oldu. Ona qarşı qəsdən adamöldürmə maddəsi ilə cinayət işi qaldırdılar. Lakin Anar silahla adam öldürməyib. İki nəfər arasında əlbəyaxa mübahisə olub, ehtiyatsızlıq ucbatından ölüm hadisəsi baş verib. Amma yazırlar ki, Anara ömürlük həbs cəzası verilə bilər. Anarın məhkəmədə hüquqlarını üç vəkil müdafiə edir. Onlar əlindən gələni edəcəklər ki, Anarın cəzası yüngül olsun".

Qeyd edək ki, ötən il avqustun 20-də rusiyalı idmançı Andrey Draçov Xabarovsk şəhərində azərbaycanlı Anar Allahverənov tərəfindən döyülərək öldürülüb. Hadisədən sonra A. Allahverənov qaçaraq bir müddət gizlənsə də, sonda hüquq-mühafizə orqanlarına təslim olub.

## 2017-ci il ərzində 1335 km yol...

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 2017-ci il ərzində uzunluğu 1335 km təşkil edən avtomobil yolları tikilib, yenidən qurulub və təmir olunub.**

Agentlikdən modern.az-a bildirilib ki, bu göstəriciyə respublika əhəmiyyətli yollar - 313,4 km; yerli əhəmiyyətli yollar - 888,7 km; Bakı şəhər yolları - 133 km daxildir.

Müqayisə üçün qeyd edək ki, 2015-ci ildə 525 km, 2016-cı ildə isə 880 km yol tikilib, yenidən qurulub və təmir olunub. 2018-ci ildə bu rəqəmin artaraq 2 min km-dən artıq olması nəzərdə tutulub.



## Ermənistanda nazir istefa verdi

**Ermənistanın energetik infrastrukturu və təbii resurslar naziri Aşot Manukyan istefa verib. Modern.az-ın məlumatına görə, istefa barədə erməni mətbuatında xəbər verilib. Qeyd olunur ki, istefa barədə nazir özü açıqlama verib. A. Manukyan qeyd edib ki, artıq istefa ərizəsini də təqdim edib.**

## Bu il magistraturaya qəbul imtahanları daha tez keçiriləcək




**Dövlət İmtahan Mərkəzi (DİM) ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanlarının vaxtını ötən illə müqayisədə irəli çəkib. Magistratura pilləsi üçün qəbul imtahanının I mərhələsi fevralın 25-də (keçən il 9 apreldə olub), rezidenturaya qəbulun birinci mərhələsi isə aprelin 1-də (keçən il 9 aprel) keçiriləcək.**

## Putin: "Bəzi MDB ölkələri Avrasiya İttifaqında müşahidəçi ola bilər"

**"Bir sıra MDB ölkələri Avrasiya İqtisadi İttifaqında müşahidəçi ola bilərlər". APA-nın verdiyi məlumata görə, bunu Rusiya prezidenti Vladimir Putin Avrasiya İqtisadi İttifaqında sədrliyin Rusiya Federasiyasına keçməsi ilə əlaqədar quruma üzv ölkələrin dövlət başçılarına müraciətində deyib.**

"Avrasiya İqtisadi İttifaqı ilə Müstəqil Dövlətlər Birliyinin daha dərin əlaqələndirilməsi imkanlarının öyrənilməsini məqsədəuyğun hesab edirik. MDB-nin bəzi iştirakçı ölkələri Avrasiya İqtisadi Birliyində müşahidəçi ola bilərlər", - deyə Rusiya prezidenti vurğulayıb.

V. Putin müraciətində Avrasiya İttifaqına üzv ölkələrin regionlararası və sərhədyanı əməkdaşlığının gələcəkdə dərinləşməsinə önəm verdiklərini qeyd edib: "Bununla biz inteqrasiya prosesinə əlavə impuls verəcəyik, üzv ölkələr regionlar səviyyəsində daha sıx əməkdaşlığa təmin etmiş olacağıq".

**Rusiya prezidenti Avrasiya İqtisadi İttifaqının inkişafının təmin olunmasının əsas əhəmiyyətinin digər dövlətlər və inteqrasiya birlikləri ilə sıx əməkdaşlıqdan ibarət olduğunu söyləyib:** "2016-cı ildən Vyetnamla azad ticarət zonası uğurlu fəaliyyət göstərir. Hazırda Misir, İsrail, İran, Hindistan, Serbiya və Sinqapurla azad ticarət zonasının yaradılması ilə bağlı aparılan danışıqların müsbət nəticələnəcəyinə ümid edirik. Avrasiya İttifaqı ilə Çin arasında iqtisadi-ticarət sahəsində əməkdaşlıq haqqında imzalanan sazişin böyük perspektivləri ni görürük".



## Azərbaycan və Ermənistan XİN başçıları Polşada görüşdü

**Polşanın Krakov şəhərində Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında görüş olub. ATƏT-in Minsk Qrupu həmsədrləri Endryü Şofer (ABŞ), Stefan Viskonti (Fransa), İqor Popov (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşikin də iştirak etdiyi görüşdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanma prosesi müzakirə olunub.**

## Ölkədən 2 milyon aparmaq istəyən şəxs tutuldu

**Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları külli miqdarda xarici valyutanın ölkənin gömrük sərhədindən qanunsuz yolla aparılmasına cəhdin qarşısını alıblar.**

DGK-dan verilən məlumata görə, Bakı-Moskva aviareysi ilə getmək istəyən Rusiya vətəndaşı gömrük nəzarətindən keçərkən, hərəkətləri şübhə doğurduğu üçün saxlanılıb.

Vətəndaşa məxsus əşyaların yoxlanılması zamanı onun çantasının içərisində və daha sonra əynindəki pencəyinin cibində əvvəlcədən gömrük nəzarətinə təqdim edilməyən, şifahi, elektron və ya kağız üzərində yazılı formada bəyan olunmayan cəmi 2 mln. 200 min Rusiya rublu aşkarlanıb.

Faktla bağlı araşdırma aparılır.

## Ukrayna Rusiyanı işğalçı ölkə elan etdi

**Ukrayna Ali Radası Donbas regionunun reinteqrasiyası ilə bağlı qanun layihəsini qəbul edib.**

Modern.az Ukrayna KİV-nə istinadən xəbər verir ki, sənəddə Rusiya işğalçı ölkə adlandırılır, hökumət qüvvələrinin nəzarət etmədiyi Donetsk və Luqansk isə müvəqqəti işğal altındakı torpaqlar elan edilir.

Ukrayna bu ərazidəki bütün maddi zərərə görə məsuliyyətin Rusiyanın üzərində olacağını da elan edir.

YENİ MÜSAVAT
N 13 (68902) 19 yanvar 2018

**Zaqafqaziyada yeganə dəmir filizi dağ-zənginləndirici müəssisə “Daşkəsən Filizsaflaşdırma” özəlləşdiriləcəyi günü gözləyir. Ölkə prezidentinin 13 iyul 2016-cı il tarixli sərəncamı ilə “Daşkəsən Filizsaflaşdırma” ASC özəlləşdirilmək məqsədilə Əmlak Məsələləri Dövlət Komitəsinin balansına verilib və müəssisənin özəlləşdirilməyə çıxarılması üçün 3 ay vaxt qoyulub. Həmin gündən 1 il 6 ay vaxt keçib, müəssisə özəlləşdirilməyib. Mətbuatda müəssisənin özəlləşdirilməsinin bəzi məmurların maraqlarına uyğun olmadığı haqda çeşidli yazılar dərc olunub. Ölkənin ağır sənayesini ayağa qaldıracaq gücdə olan “Daşkəsən Filizsaflaşdırma”nın məmur maraqları səddini nə vaxt aşacağı bəlli deyil.**






# Ələddin Sadıqovun “sehirli” əməlləri - “Daşkəsən Filizsaflaşdırma”nı dağıdan əllər

## Sözügedən müəssisənin fəhlələri “Yeni Müsavat”a ilginc faktlar açıqladılar; özəlləşmənin qarşısını alan səbəblər





“Yeni Müsavat”ın reportyor qrupu sözgedən müəssisə ilə bağlı son durumu araşdırmaq üçün Daşkəsəndə olub.

Müəssisənin fəhlələri isə ehtiyac və borc içində çabalayırlar. Fəhlələr dövlət qurumlarına, mətbuat orqanlarına usanmadan şikayət yazıb, 2013-cü ildən almadıqları əmək haqlarını tələb edirlər. “Daşkəsən Filizsaflaşdırma” rayonda yeganə müəssisədir ki, vaxtilə orada 2 mindən artıq işçi çalışıb. Hazırda isə müəssisənin 340 işçisi var. 2015-ci ildə müəssisə fəaliyyətini tam olaraq dayandırıb. Bundan sonra bir tərəfdən rayonun sərt iqlimi, digər tərəfdən pulsuzluq fəhlələrin durumunu son həddə qədər qəlizləşdirib. Köhnəlmiş, qolları sürtülmüş nimdaş paltarlarda gəzən fəhlələr bu gün müəssisənin ətrafındakı dükan-bazarlarda arzu olunmayan müştərilərə çevriliblər. Orada 340 işçinin böyük hissəsini ad və soyadla tanıyırlar. Kimin rayonun hansı kəndinin, hansı küçəsində yaşadığını, neçə uşağının olduğunu belə satıcılar əzbər bilirlər. Fəhlələrin qapılarına getməkdən satıcılar da, fəhlələr də, onların ailələri də beziblər. Pul isə yoxdur. Olacağına ümidlər də artıq tükənib. Nisyə dəftərlərində ən böyük məbləğləri müəssisə fəhlələrinin adları qarşısında görmək olur.

### Sup-çörəklə yeni ili qarşılayan fəhlələr

**“2013-dən bu yana maaş almayan adamlara kim salam verər? İnsaflı satıcılar olmasa, batarıq. Aramızda elələri var, yeni ili sup-çörəklə qarşılayıb. Əkinimiz yox, biçinimiz yox. Evə getməyə belə üzümüz yoxdur. 40 il burada işləyənlər, külüng vuranlar var. Nə olsun? Pul ki ala bilmirik”. Bu sözləri müəssisənin fəhlələrindən biri deyir. Az keçmir ki, ətrafımıza 30-dan çox fəhlə toplaşır.**

**Yaşı 50-ni haqlayan fəhlələrdən biri deyir ki, 2013-cü ildə 20 min ton konsentrat çıxarıblar:** “Burada ən böyük əmək haqqı 300 manat olub. 30 min əhalisi olan Daşkəsən rayonunun gözünü dikdiyi yeganə iş yeri buradır. 2016-cı il iyulun 13-də prezident sərəncamı ilə ”Daşkəsən Filizsaflaşdırma" özəlləşdirməyə çıxarıldı. Sevindik. Dedik ki, bir sahibkar buranı alar, bizə əmək haqqı verər. 4 dəfə özəlləşdirməyə çıxarıblar. Özəlləşdirmə baş tutmur ki, tutmur. İllərdir ki, əmək haqqı ala bilmirik".

### Müəssisənin hesabına 68 milyon avro pul gəlməli imiş

“Köhnə rəhbərlik vergi, sosial sığorta, elektrik enerjisinə görə borcları vaxtında ödəməyib. Yeni təyin olunan Fərid Əsədov isə hesaba pul yatıra bilmir. Dövlət Sosial Müdafiə Fondu, ”Azərişıq" müəssisənin hesabına sərəncam qoyub. Müəssisəni milyonlarla manat borca salıblar. Bizim çıxardığımız konsentratın tonunu 6-7 manata rəsmiləşdiriblər, daşıyıblar Potiyə, oradan da Çinə tonu 78 avrodan satıblar. Müəssisənin hesabına 68 milyon avro pul gəlməli imiş. Amma basıb yeyiblər. Biz fəhlələr də burada acından ölürük" -digər bir fəhlə isə belə deyir.

### Prezident müəssisənin 100 gün ərzində özəlləşdirməyə çıxarılması üçün vaxt qoymuşdu

**Söhbətə qoşulan başqa bir fəhlə də əmək haqqı ala bilmədiklərindən gileylənir:** “Dolana bilmirik. Burada iqlim sərtdir, evlərimizi də qızdıra bilmirik. Qazın, işığın pulunu ödəyə bilmirik. Borclu olmadığımız ünvan yoxdur. Prezident müəssisənin 100 gün ərzində özəlləşdirməyə çıxarılması üçün vaxt qoymuşdu. İl yarım keçib və müəssisə özəlləşdirilməyib. Biz əmək haqqı almadığımız müddətdə də konsentrat istehsal etmişik və həmin konsentratı daşıyıb xaricə satıblar. Biz bu gün də bilmirik ki, 100 min tondan artıq konsentratın pulu hara gedib, kimin cibinə gedib. Əvvəlki rəhbərlik Ələddin Sadıqovdan soruşurduq ki, pulları hara xərcləyirsiz, bizim əmək haqqımızı niyə vermirsiz? Deyirdi borca, vergiyə, sığorta pulunuza vermişəm. İndi bilirik ki, 2010-cu ildən bu yana bizim sığorta pullarımızı belə keçirməyib, 1 manat belə verməyib. Bu gün müəssisəyə daxil olan pullara da həbs qoyulub, maaş ala bilmirik. Müəssisəni milyonlarla borca salıblar”.

“Biz də çox acınacaqlı duruma düşmüşük. Get istənilən mağazaya gir, nisyə dəftərlərində bizlərin adı qarşısındakı rəqəmlərə bax! Görəcəksən ki, hərəmizin 300-500 manat borcu var. Elə fəhlə var ki, ona heç nisyə mal verən də yoxdur. O qədər borcu yığılıb ki... Bizə mağazalar nisyə də vermirlər, qaz-işığımızı da kəsirlər. Uşağı məktəbə yola sala bilmirik”.



### Prezidentin qəbuluna gedəcəyik

**Vahid Bayramov deyir ki, müəssisədə elə fəhlə var ki, işə gəlir, ondan-bundan çörək alıb yeyir. Müəssisə işçiləri borc almaqdan beziblər:** “20 yanvarda borc-xərc edib Bakıya gəlib şəhidlərimizin ruhu qarşısında baş əyəcəyik, oradan da Prezident Administrasitasına qəbula gedəcəyik. Qoy bizim müəssisənin real durumunu bilsinlər. Özəlləşdirməyə açıq elan edilən müəssisənin iflic edildiyindən xəbərdar olsunlar”.

### Hamının bizim mağazaya borcu var

**Akif Bağırov isə təklif edir ki, fəhlələrin borclarını mağazalara getməklə öyrənək:** “Mənim 400 manat borcum var. Gəlin mağazalara gedək, baxın, görün hansı gündə yaşayırıq”.

**Fəhlələrin təklifi ilə müəssisə ətrafındakı mağazalara da baş çəkirik. Satıcı 5-6 borc dəftərinin vərəqlərini o üz, bu üzə çevirib əlini müəssisənin fəhləsi Elnur Məmmədov adı yazılan sətirin üstünə qoyur:** “77 üstə gələk 10 manat, üstəgəl 21 manat... ümumilikdə bərabərdir 397 manat 20 qəpik. Müəssisənin digər işçisi Elnur Bağırovun borcu 328 manat 30 qəpik, bax, o çöldə dayanan Asimin, Qiyasın, Qasımın, elə çöldəkilərin demək olar ki, hamının bizim mağazaya borcu var”.

### “Daşkəsən Filizsaflaşdırma”nın başına elə daş salıblar ki...

**Çöldə isə müəssisənin 30-dan çox fəhləsi var. Yaxınlıqdakı un və un məhsulları satılan mağazada da oxşar durumdur. Satıcı Aygün xanımın üzündən narazılıq hiss olunur. Əlindəki alboma oxşar borc dəftərini həvəslə açıb kalkulyatoru qabağına qoyur və qalaqlanmış borcları hesablamağa başlayır. Fəhlələrin adı borc dəftərlərində yuxarı başdan yazılıb, satıcı deyir ki, adları yeni dəftərlərə köçürməkdən yorulub:** “Nisyə un alıb çörək bişirib ailələrini saxlayırlar. Unu nisyə verməsək, bu adamların uşaqları ac qalar. Veririk, özümüz qazancsız qalırıq. Çox çətin vəziyyətdir. Fəhlələrin pulu verilsə, bizim də yükümüz azalar. Bax buradakı Bəndəl Məmmədovun mağazaya 540 manat borcu var. O dəfə Elnur gəldi, onu qovdum. Nə edim? 169 manat 50 qəpik borcu var. Vermir. Maaş almır axı. Qiyasın 280 manat borcu var. Unu alıb aparıb, pulunu da verə bilmir. ”Daşkəsən Filizsaflaşdırma"nın başına elə daş salıblar ki, bu fəhlələr də qalıb ortalıqda. Onlar batırlar, bizi də batırırlar".

### “Daşkəsən Filizsaflaşdırma”nın mal-materialını Gəncəyə daşıyıb metalloma təhvil verirlər

**Yada salaq ki, “Daşkəsən Filizsaflaşdırma” ASC 2016-cı ilin martın sonundan bu günə qədər 4 dəfə satışa çıxarılıb. Rəsmi məlumatlarda qeyd olunur ki, müsabiqəyə investorlardan müraciət olmayıb.**

**Müəssisənin fəhlələri isə bu fikirlə razı deyillər. Onların sözlərinə görə, özəlləşməyə qarşı çıxanlar var. Məqsəd isə “Daşkəsən Filizsaflaşdırma”nın əmlakını dağıtmaqla dəyərsizləşdirməkdir.**

“Ələddin Sadıqov bizə əmək haqlarımızı vermirdi, əvəzində eşidirdik ki, Bakıda, Gəncədə obyektlər alırdı, Gürcüstanda hoteldən belə alıb. Müəssisəni böyrü üstə qoydu. Prezident deyir ki, yerlərdə istehsal müəssisələri yaradın. Bu adamlar isə olan istehsal sahəsini məhv edirlər. Gecə-gündüz ”Daşkəsən Filizsaflaşdırma"nın mal-materialını Gəncəyə daşıyıb metalloma təhvil verirlər, bahalı, paslanmayan dəmirdən olan materialları Gəncədə tikilən bazarın damına vurublar. Avtokalonda traktor, maşın, texnika qalmadı, doğradılar, daşıyıb aparıb Gəncədə satdılar. Biz prezidentə, baş nazirə də bu haqda yazmışıq, amma şikayətlərimizin ünvana çatmasına imkan verilmir. Bizlər də borc içində batırıq".

“Daşkəsən Filizsaflaşdırma”nın rəhbərliyindən isə suallarımızı cavablandırmaq istəmədilər.

Xatırladaq ki, ASC-nin elan olunmuş özəlləşmə şərtləri belədir:

Qara metallurgiya müəssisələri zənciri yaradılması nəzərə alınmaqla ümumi investisiya həcmi azı 600 milyon dollar olmalı, dövlət büdcəsinə azı 100 milyon manat köçürülməlidir.

### İddiaçılar qarşısında qoyulan şərt və tələblər

**Müəssisənin istifadəsində olan dəmir filizi mədənlərinin bazasında xammaldan son məhsula qədər istehsal zəncirini ölkə daxilində təmin edən klaster yaradılmalıdır. 5 il ərzində icra olunacaq İnvestisiya Proqramı (biznes-plan) təqdim edilməlidir:**

*- səhmdar cəmiyyətinin istifadəsində olan yataqlardakı dəmir filizinin mövcud qanunvericiliyə uyğun olaraq təhlükəsizlik və ekoloji standartlara riayət olunmaqla illik hasilatının həcmi ilə bağlı təklif;*

*- rəqabətqabiliyyətli və əlavə dəyər yaradan, idxalı əvəz edən, ixrac yönümlü son məhsul istehsalının ölkə daxilində təşkil edilməsi ilə bağlı qurulacaq istehsal zəncirinə daxil olan müəssisələrə və onların istehsal gücünə dair təklif;*

*- istehsal olunacaq hazır məhsulların çeşidinə dair (məsələn, ikitavr, polad künclük, şveller, pəstah, dəmir lövhə, boyalı/boyasız rulonlar və s.) təklif;*

*- müəssisədə aparılacaq yenidənqurma, tikinti, təmir-bərpa işlərinə dair təklif;*

*- yeni avadanlıq və texnologiyaların tətbiqinə dair təklif;*

*- yeni iş yerlərinin yaradılmasına dair təkliflər (1.000 iş yerindən az olmayaraq);*

*- istehsal olunacaq məhsulların satış bazarları haqqında təklif;*

*- təklif olunmuş investisiya həcminin ümumi məbləğinin 5 (beş) %-ə qədərinin pul vəsaiti şəklində səhmdar cəmiyyətinin hesablaşma hesabına köçürülməsi və ondan istifadəyə dair təklif (məbləğ qeyd olunmaqla).*

*- Dövlət büdcəsinə ödəniləcək pul vəsaitinə dair təklifin verilməsi. Təklifin minimal həddi 100 milyon manat müəyyən edilməklə, maksimal həddi iddiaçılar tərəfindən təklif olunmalıdır.*

❑ **“Yeni Müsavat”ın Reportyor Qrupu**

# Prezidentdən itkin düşən alpinistlərlə bağlı tapşırıq-Abid Şərifov açıqladı

## "Cənab prezidentin göstərişi və razılığı olmadan Fövqəladə Hallar Nazirliyi xaricdən özbaşına mütəxəssis dəvət etməz"

**Dekabrın 25-dən Tufandağda itkin düşmüş gənc alpinistlər - Babur Hüseynov, Namin Bünyatov və Fəridə Cəbrayılzadənin axtarışları bir aya yaxındır ki, nəticəsiz qalıb. Gənc alpinistlərin itkin düşmələri ilə bağlı xəbərin yayıldığı ilk günlər peşəkar alpinistlər tərəfindən müxtəlif fikirlər səsləndirilirdi. Kimisi bildirirdi ki, itkin düşən gənclər çox təcrübəlidirlər və onlar uçquna düşə bilməzlər, bəziləri isə hesab edirdilər ki, gənclər yolu azaraq başqa səmtə gediblər və tezliklə tapılacaqlar. Hazırda isə gənc alpinistlərlə bağlı yayılan xəbərlər yalnız rəsmi mənbələri əhatə edir. Axtarışların günlərdir davam etməsinə baxmayaraq, hələ də heç bir izə rast gəlinməyib.**

Ötən günlər ərzində axtarışlara xaricdən peşəkar alpinistlər də cəlb olundu. Belə ki əvvəlcə Avstriyanın Daxili İşlər Nazirliyinin dağ-xilasetmə sahəsi üzrə mütəxəssisləri axtarışlara cəlb olundu. Ardınca isə qardaş Türkiyədən də iki mütəxəssis gətirilərək, təcrübələrindən istifadə edildi. Lakin bütün bu cəhdlər də nəticəsiz qaldı...

**Baş nazirin müavini Abid Şərifov isə ölke.az saytına müsahibəsində bildirib ki, itkin düşmüş alpinistlərin tapılması ilə bağlı ölkə başçısı müvafiq tapşırıqlar verib:**

"Alpinistlərin tapılması üçün xarici ölkələrdən, o cümlədən qardaş Türkiyədən mütəxəssislər gətirilib, axtarış işlərinə helikopterlər cəlb olunub və sairə. Bütün bunlar böyük xərc tələb etsə də, dövlətimiz bu məsələni diqqətdə saxlayır. Həm cənab prezident, həm də hökumətimiz çalışır ki, itən alpinistlər tezliklə tapılsın. Hər kəs də bunu istəyir. Şübhəsiz ki, bu məsələ bilavasitə cənab prezidentin nəzarətindədir. Cənab prezidentin göstərişi və razılığı olmadan Fövqəladə Hallar Nazirliyi xaricdən özbaşına mütəxəssis dəvət etməz. Ona görə də bütün müvafiq qurumlar alpinistlərin tapılması üçün gecə-gündüz çalışırlar. Cənab prezidentin göstərişi ilə 20 gündən çoxdur ki, axtarış işləri davam etdirilir. Özü də çox çətin, qarlı, tufanlı şəraitdə işlər aparılır".

**"Yeni Müsavat"a danışan "Vertical Group" Dağ turizmi və sənaye alpinizmi şirkətinin təsisçisi Emil Vəliyev bildirib ki, hazırda FHN-in əməkdaşları tərəfindən ərazidə 10 metrlik dəmirlərlə şuplama işləri aparılır:** "Günlər keçməsinə baxmayaraq, alpinistlərin sağ qalması mümkündür. Ola bilər ki, mağarada qalsınlar, bu zaman həyatda qala bilərlər. Qrupun marşrut dəyişməsi ilə bağlı fikirlər səsləndirirlər. Ancaq məsələ burasındadır ki, dekabrın 23-dən 24-nə keçən gecə Azərbaycanın 2017-ci ildə ikinci ən küləkli gecəsi olub. Bunu federasiya da, klub da, alpinistlərin özləri də öncədən biliblər. Ümumiyyətlə, dağa gedən zaman icazə qaydası fərqlidir. Biz federasiyanın üzvü olmadığımız üçün bir ay öncədən müraciət edirik. İcazə olarsa, bir həftə qalmış məktub göndərilir ki, sizə 15-dən - 18-nə qədər icazə verilir. Həmin 3 gün ərzində əraziyə gedib, qayıtmalısan".

**Alpinist axtarışla bağlı bundan sonra hansı işlərin aparılmalı olduğu barədə də danışıb:**



**"Bir vətəndaş olaraq istəyərdim ki, onlar tapılsınlar. Ancaq alpinizmdən bir az da olsa anlayışı olan adam kimi deyə bilərəm ki, bu gün orada böyük təhlükə var. Sosial şəbəkədə bu işi bilməyən insanların statusu ilə və ya hansısa saytlar vasitəsilə FHN-i qınamaq mənasız işdir. Çünki bu gün FHN-in əməkdaşları da uçqun altında qala bilərlər. 3 nəfəri tapmaq üçün getdiyimiz halda 15-20 nəfəri itirə bilərik. Dərəyə 3 tərəfdən olmaqla, 1000 metr hündürlükdən qar axıb gəlib. Nəticədə orada hündür qar qatı yaranıb. Bu cür qarın olduğu yerdə axtarış necə asan ola bilər? Düşünürəm ki, 10 metrlik şuplamadan sonra nəticə olmasa, geri çəkilmək daha doğrudur. Məsələ bacarıb-bacarmamaq deyil. Alpinizmdə belə bir şey var ki, yıxılan adam digər 5 nəfərin də həyatına təhlükə yaradırsa, öz ipini kəsməlidir. İndi də orada təhlükə böyü**kdür və hər an axtarış qrupu uçqunda qala bilər. Bir məsələ diqqətdən kənarda qalıb. Nə üçün 55 km/saat küləyin olduğu gün klub, federasiya rəhbərliyi onları ərazidən çıxarmayıb? Mən də klub rəhbəriyəm və dağa üzvümüz gedən zaman onların harada olduğunu öyrənirəm. Bunlar isə klub rəhbəri ilə axşama qədər mesajlaşıblar. Ancaq rəhbər çadırın harada qurulduğunu onlardan soruşmayıb. Alpinistlərin o ərazidən ayın 23-ü çıxarılması lazım idi. Lakin bu baş verməyib. Həmin günlərdə Xınalıqda küləyin təsirindən işıqlar sönüb, evlərin damları uçub. İndi düşünün ki, orada nə baş verib..."

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Ərəb pullarının Bakıya yolu açılır

## "Saudi Aramco" Azərbaycanda nümayəndəlik açır

Saudi Aramco
Energy Ventures

**Azərbaycan Səudiyyə Ərəbistanı ilə enerji sahəsində əməkdaşlığı genişləndirəcək. Bununla bağlı razılaşma Azərbaycanın energetika naziri Pərviz Şahbazovun rəhbərlik etdiyi nümayəndə heyətinin bu ölkəyə rəsmi səfəri zamanı əldə olunub.**

Eyni zamanda məlum olub ki, yaxın vaxtlarda Azərbaycanda "Saudi Aramco" şirkətinin nümayəndəliyi fəaliyyətə başlayacaq.

Qeyd edək ki, Azərbaycan son illərdə aktiv şəkildə ərəb ölkələri ilə iqtisadi əməkdaşlığı genişləndirməkdədir. Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Səudiyyə Ərəbistanı, İraqla təmaslar getdikcə artırılır. Tez-tez ərəb ölkələrində Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının, ölkəmizin turizm imkanlarının təqdimat tədbirləri təşkil olunur. Azərbaycandan ərəb ölkələrinə ət və meyvə-tərəvəz ixracında da ciddi artım qeydə alınmaqdadır.

"Saudi Aramco"nun Azərbaycanda nümayəndəlik açması bu baxımdan mühüm hadisə ola bilər. Bu, əməkdaşlıq Azərbaycana nə verəcək? Ərəb investisiyalarının Azərbaycanın hazırda icra etməkdə olduğu böyük enerji layihələrinə cəlb olunması mümkündürmü?

**İqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov deyir ki, ərəb ölkələri, xüsusilə də Körfəz ölkələrindən investisiyanın cəlb edilməsi çox aktualdır:** "Çünki Körfəz ölkələrinin sərmayə qoyuluşu imkanları çox genişdir və onlar üçün də yeni bazarların müəyyənləşdirilməsi, yeni bazarlara sərmayələrin yönəldilməsinə ehtiyac var. Azərbaycan Körfəz ölkələri üçün məhz bu kontekstdən yeni bazar kimi qiymətləndirilə bilər. Nəticə etibarilə bu, Azərbaycan iqtisadiyyatına ərəb investisiyalarının cəlb edilməsi üçün əlverişli imkan yaradır".

**Ekspertə görə, hər bir ölkə üçün, xüsusilə inkişaf etməkdə olan ölkələr üçün cəlb edilən investisiyanın diversifikasiya edilməsi çox vacibdir:** "İnkişaf etmiş ölkələrin, Avropanın investisiyaları həm də nouhounun, texnologiyaların, innovasiyanın ölkəyə gətirilməsinə imkan yaradır. Etiraf etmək lazımdır ki, ərəb investisiyalarının bu tip imkanları xeyli məhduddur. Digər tərəfdən, strateji layihələrdə sərmayədarların cəlb edilməsi üçün layihə üzrə tərəfdaşların razılığı lazımdır. Neftin mövcud qiymətlərini, eləcə də Azərbaycanın valyuta ehtiyatlarını nəzərə alsaq, ölkəmizin iri layihələrin reallaşması üçün maliyyə tələbi, kreditorlara tələbi əvvəlki dövrlə eyni deyil. Etiraf etmək lazımdır ki, Azərbaycanın kreditorlara tələbi azalıb. İndiki şəraitdə ərəb investisiyalarının daha çox xidmət sektoruna cəlb olunması məqsədəuyğun olar. Xüsusilə də ərəb sərmayəsi hesabına İslam bankçılığının bank sektoruna gətirilməsi mümkündür. Yeni iri enerji layihələrinə ərəb investisiyalarının cəlbi məqsədəuyğun deyil, onlardan daha çox xidmət və kənd təsərrüfatı sahələrində yararlanılması düzgün olardı".

**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban hesab edir ki, Bakıdakı nümayəndəlik ərəb şirkəti üçün regional əhəmiyyət daşıyacaq:** "Yəqin ki, "Saudi Aramco" Bakıda Xəzər uzrə regional ofis açacaq və ola bilər ki, Türkmənistan, Qazaxıstan və Azərbaycanın layihələrinin maliyyələşdirilməsində ya passiv iştirakçı kimi, ya da müştərək müəssisələrin tərəfdaşı kimi çıxış etsin. Burada rəsmi Ciddənin marağı ola bilər. Onlar hazırda İranla Türkmənistan arasında yaranan problemi də nəzərə alıb, o cümlədən Azərbaycan və Qazaxıstanla Səudiyyə arasındakı xoş əlaqələri nəzərdə tutub belə bir addım atmaqla Xəzər regionunda öz mövqelərini möhkəmləndirmək yönümündə çoxkombinasiyalı gediş edə bilərlər".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Pensiyaçıların bankomat problemi

## Ekspertin fikrincə, müavinətlərin verilməsinin iki banka həvalə edilməsi doğru deyil

**Dövlət büdcəsindən maliyyələşən qurumlardan maaş alan, eləcə də dövlətdən pensiya və sosial müavinət alan vətəndaşların başlıca problemlərindən biri də bankomat azlığıdır. Belə ki, bu təbəqədən olanlar əsasən pullarını Beynəlxalq Bankın və "Kapital Bank"ın bankomatlarından alırlar. Əksər iri qəsəbələrdə bu bankların cəmi bir bankomatı olduğundan maaş və pensiyaların köçürülməsi ərəfəsində bankomatların önündə uzun növbələr yaranır.**




Bəs görəsən, ölkənin ən iri iki bankının bankomatları niyə bu qədər azdır? Və ya maaş, sosial müavinət və pensiyaların ödənişi nə üçün məhz iki bank vasitəsilə həyata keçirilir?

**İqtisadçı ekspert Samir Əliyev** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, hazırda dövlət büdcəsindən verilən maaş və pensiyaların verilməsində iki bank iştirak edir - Azərbaycan Beynəlxalq Bankı və "Kapital Bank". Bir arada "Texnikabank" da bu prosesə qoşulmuşdu, Sumqayıt şəhərində pensiyaların verilməsi bu bank vasitəsilə həyata keçirilirdi. Daha sonra bu bank bağlandı və bu məsələ yenə də iki bankın öhdəsində qaldı. Bankların gəlirlərinə diqqət yetirsək, Beynəlxalq Bankın faizdən olmayan gəlirləri 400 milyon manatdan çoxdur. İkinci yerdə "Kapital Bank" gəlir. Bu gəlirlərin də əsasını pensiya, sosial müavinətlər və maaşların bu iki bank tərəfindən verilməsi təşkil edir. Burada hökumətin əsaslandırması belə ola bilər ki, bu iki bank ən yaxşı infrastruktura malikdir, hər rayonda filialı və bankomatları var. Bu iki bankın bankomatları digər banklarla müqayisədə çoxdur. Ancaq hökumət burada bir tərəfdən digər bankların da inkişafına şərait yaratmalıdır. Ola bilər ki, hansısa bankın bankomatları hər yerdə bu qədər çox deyil. Ancaq hansısa rayonlarda kifayət qədər yaxşı şəbəkəsi ola bilər. Bütün respublika üzrə olmasa da, ayrı-ayrı rayonları ayrı-ayrı banklara vermək olar.

Biz də müşahidə edirik ki, bankomatların önündə onlarla insan növbədə dayanır. ABB və "Kapital Bankın" bankomatlarının qarşısında pensiyaçılar, həkim və müəllimlər, sosial müavinət alanlar növbə yaradırlar, həmin bankların digər müştəriləri də bundan əziyyət çəkirlər. Halbuki onun yanında digər banklara məxsus bankomatların önü boş olur. Bu mərkəzləşməni azaltmaq üçün digər banklar da prosesə cəlb olunmalıdır. Xüsusən də 3-4 gün ardıcıl bayram günləri olanda bankomatlarda pul tapılmır. Ona görə düşünürəm ki, bu məsələyə baxılmalıdır. Dövlət büdcəsindən maliyyələşən müəssisələrdən maaş alan, o cümlədən sosial müavinət və pensiya alan müştərilərə xidmət göstərən bankların sayı 10-a qədər artırılarsa, bu daha məqsədəuyğun olar".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

Pensiyaçıların bankomat problemi

Ekspertin fikrincə, müavinətlərin verilməsinin iki banka həvalə edilməsi doğru deyil

Dövlət büdcəsindən maliyyələşən qurumlardan maaş alan, eləcə də dövlətdən pensiya və sosial müavinət alan vətəndaşların başlıca problemlərindən biri də bankomat azlığıdır. Belə ki, bu təbəqədən olanlar əsasən pullarını Beynəlxalq Bankın və “Kapital Bank”ın bankomatlarından alırlar. Əksər iri qəsəbələrdə bu bankların cəmi bir bankomatı olduğundan maaş və pensiyaların köçürülməsi ərəfəsində bankomatların önündə uzun növbələr yaranır.

Bəs görəsən, ölkənin ən iri iki bankının bankomatları niyə bu qədər azdır? Və ya maaş, sosial müavinət və pensiyaların ödənişi nə üçün məhz iki bank vasitəsilə həyata keçirilir?

İqtisadçı ekspert  Samir Əliyev “Yeni Müsavat”a açıqlamasında bildirib ki, hazırda dövlət büdcəsindən verilən maaş və pensiyaların verilməsində iki bank iştirak edir - Azərbaycan  Beynəlxalq Bankı və “Kapital Bank”. Bir arada “Texnikabank” da bu prosesə qoşulmuşdu, Sumqayıt şəhərində pensiyaların verilməsi bu bank vasitəsilə həyata keçirilirdi. Daha sonra bu bank bağlandı və bu məsələ yenə də iki bankın öhdəsində qaldı. Bankların gəlirlərinə diqqət yetirsək, Beynəlxalq Bankın faizdən olmayan gəlirləri 400 milyon manatdan çoxdur. İkinci yerdə “Kapital Bank” gəlir. Bu gəlirlərin də əsasını pensiya, sosial müavinətlər və maaşların bu iki bank tərəfindən verilməsi təşkil edir. Burada hökumətin əsaslandırması belə ola bilər ki, bu iki bank ən yaxşı infrastruktura malikdir, hər rayonda filialı və bankomatları var. Bu iki bankın bankomatları digər banklarla müqayisədə çoxdur. Ancaq hökumət burada bir tərəfdən digər bankların da inkişafına  şərait yaratmalıdır. Ola bilər ki, hansısa bankın bankomatları hər yerdə  bu qədər çox deyil. Ancaq hansısa rayonlarda kifayət qədər  yaxşı şəbəkəsi ola bilər. Bütün respublika üzrə olmasa da, ayrı-ayrı rayonları ayrı-ayrı banklara vermək olar.

Biz də müşahidə edirik ki, bankomatların önündə onlarla insan növbədə dayanır. ABB və “Kapital Bankın” bankomatlarının qarşısında pensiyaçılar, həkim və müəllimlər, sosial müavinət alanlar növbə yaradırlar, həmin bankların digər müştəriləri də bundan əziyyət çəkirlər. Halbuki onun yanında digər banklara məxsus bankomatların önü boş olur. Bu mərkəzləşməni azaltmaq üçün digər banklar da prosesə cəlb olunmalıdır. Xüsusən də 3-4 gün ardıcıl bayram günləri  olanda bankomatlarda pul tapılmır. Ona görə düşünürəm ki, bu məsələyə baxılmalıdır. Dövlət büdcəsindən maliyyələşən müəssisələrdən maaş alan,  o cümlədən sosial müavinət və pensiya alan  müştərilərə xidmət göstərən bankların sayı 10-a qədər artırılarsa, bu daha məqsədəuyğun olar".

Nərgiz LİFTİYEVA,“Yeni Müsavat”




# İrəvanın İran "nəfəsliyi" kiçilir - baş nazirdən acı etiraf

## Ermənistanın cənub qonşumuzla iqtisadi əlaqələri keçən il minimuma, yeni dəmir yolu layihəsi isə düyünə düşüb; səbəblərdən danışan erməni baş **nazir Karen Karapetyan:** "Yaxşılaşma o vaxt olacaq ki..."

**Bu gün Ermənistanın paytaxtı İrəvanda təzə ilin ilk ən kütləvi etiraz aksiyası start götürəcək. "Yeni Müsavat"ın xəbər verdiyi kimi, aksiya yanvarın 1-dən sonra gündəlik tələbat mallarının, benzin və sıxılmış qazın bahalaşması ilə birbaşa bağlıdır. Nümayişin təşəbbüskarı isə parlamentdəki müxalif "Yelk" blokudur.**

Gözlənildiyi kimi, etirazlarla bağlı artıq hakimiyyət ön tədbirlər görməyə başlayıb və situasiyanı yumşaltmağa, əhalini sakitləşdirməyə çalışır. Eyni məqsədlə yanvarın 23-nə parlamentdə bahalaşma mövzusunda dinləmələr təyin edilib. Hökumətin təyin elədiyi xüsusi komissiya qiymətlərin təftişinə başlayıb.

*****

**Məsələn, komissiya üzvü A.Şaboyanın sözlərinə görə, benzin bazarında qiymətlər təftiş edilib və bu zaman məlum olub ki, qonşu Gürcüstanda və Ermənistanda benzin təxminən eyni qiymətə satılır.** "Bundan əlavə, erməni və gürcü benzinin qiymətləri müqayisəyə gələn deyil. Biz benzini əsasən Rusiyadan, Rumıniya və Bolqarıstandan gətiririk, Gürcüstan isə - Azərbaycan və Türkmənistandan alır. Bundan əlavə, biz benzini Gürcüstan ərazisindən dəmir yolu ilə gətiririk ki, bu da qiymətə ciddi təsir göstərir", - deyə komissiya üzvü bahalaşmaya haqq qazandırmağa çalışıb.

"İnsanların bu haqda *(bahalaşma haqda - A.X.)* çox fikirləşməsi məni narahat edir". Bu sözləri isə "Yeni Müsavat"ın məlumatına görə, hakim Respublikaçılar Partiyasından olan **deputat Qalust Saakyan** qiymətlər mövzusunda jurnalistlərlə söhbət zamanı deyib. "Mən həmçinin xalqı yaxşı tanıyıram və onun istəklərini bilirəm. Sadəcə, müxalifət öz mövqeyini keçirmək istəyir", - deyə o iddia edib.

**Hakimiyyəti təmizə çıxarmağa çalışan iqtidar deputatı daha sonra iddia edib ki, qiymətlər heç də hakimiyyətin üzündən qalxmayıb:** "Bütün dünyada bahalaşma gedir. Parlament tezliklə dinləmələr keçirəcək və hökumət qərarları təqdim eləməlidir".

*****

İşğalçı ölkənin düşdüyü ağır sosial-iqtisadi durum sözsüz ki, ən əvvəl onun Dağlıq Qarabağ məsələsinə görə illərdir blokadada olması, bunun məntiqi nəticəsi kimi də iqtisadi inkişafın yerində sayması, Ermənistanın xarici sərmayədarlar üçün cəlbedici olması ilə birbaşa bağlıdır. Nəinki dünya okeanına, hətta nəqliyyat əhəmiyyətli hər hansı iri çaya belə, çıxışın olmaması onun iqtisadi durumunu daha da ağırlaşdırır. Ermənistan bu vəziyyətdə iqtisadi-ticari baxımdan nə region, nə də digər ölkələr üçün ciddi önəm kəsb eləmir - nəyi ki, indi yerli iqtisadçılar da etiraf edirlər.

O sırada işğalçı ölkə üçün onun çox güvəndiyi İran da əlçatmaz olaraq qalır. Çünki cənub qonşumuzdan ötrü istər tranzit anlamında, istərsə də böyük və əlverişli bazarlar mənasında Azərbaycan qat-qat sərfəli ölkə və strateji tərəfdaşdır. Azərbaycan, İran və Rusiyanın iştirakı ilə qurulmaqda olan "Şimal-Cənub" nəqliyyat dəhlizi buna bariz sübutdur və Ermənistanın təcridini daha da gücləndirəcək.

Söz düşmüşkən, bu il layihə ilə bağlı Azərbaycan, İran və Rusiya prezidentlərinin nəzərdə tutulan növbəti üçlü görüşü Moskvada keçiriləcək. Keçən ilin oktyabrında istismara verilən və Ermənistandan yan keçən Bakı-Tiflis-Qars dəmir yolu ("Dəmir İpək Yolu") isə işğalçı ölkəni regional iqtisadi proseslərin bir az da ucqarına itələmiş olacaq.

Həmçinin Gürcüstan tərəfdən yeni dəhlizin *(Abxaziya dəmir yolu)* acılmasına bəslənən ümidlərin fiasko olması nəzərə alınarsa, baş verənlər Ermənistan rəhbərliyini təlaşlandırmaya bilməz. Fakt budur ki, Ermənistan ətrafından bütün bazarlar artıq tutulub, dairə daralıb. İrəvanın ələlxüsus İranla iqtisadi-ticari əlaqələri dərinləşdirmək cəhdləri boşa çıxmaqdadır.

*****

"Keçən il İranla bizim ticarət dövriyyəmizin həcmi 62.5 milyon dollar olub *(müqayisə üçün: Azərbaycanla ticarət dövriyyəsi müvafiq dövrdə 257 milyon dollar təşkil edib - A.X.)* İranın əhalisi nəzərə alınarsa, bu, çox cüzi rəqəmdir. Bizim idxal və ixracla bağlı ən kiçik artımımız məhz İran bazarında olub. Biz iranlı bütün tərəfdaşlarımıza deyirik ki, sizin burada görə biləcəyiniz çox işlər var. Sıçrayışa nail olmaq üçün hər cür potensial mövcuddur". "Yeni Müsavat"ın erməni mətbuatına istinadən verdiyi xəbərə görə, bu sözləri baş nazir Karen Karapetyan dünən parlamentdəki dinləmələr zamanı deputatlardan birinin sualını cavablandırarkən deyib.

**O, İranla Ermənistan arasında dəmir yolu inşasının baş tutmamasına da münasibət bildirib.** "Tərəflər arasında dəmiryolu qurulacaqmı? Bu, mal axınından asılı olacaq. Fikrimcə, belə bir dəmir yolunun inşası məqsəd yox, vasitə olmalıdır. Biz bu məsələyə bazar aktivləşəndə qayıdacağıq", - deyə baş nazir əlavə edib.

*****

Ermənistanın xariclə ticari bazarı isə Qarabağ məsələsinin həllində real dönüş olmayınca heç vaxt nə fəallaşacaq, nə də dirçələcək. Bunu baş nazir Karapetyan yəqin ki, hamıdan yaxşı bilir. Onu da bilməmiş deyil ki, keçən il onun Tiflisə elədiyi iki günlük səfər çərçivəsində *(az sonra prezident Serj Sərkisyan da eyni məqsədlə Gürcüstanda olmuşdu)* Abxaziya dəmiryolunun açılmasına gürcü tərəfinin razılıq ala bilməməsi də müstəsna olaraq həll olunmamış Dağlıq Qarabağ konflikti ilə, Bakı-Tiflis münasibətlərinin dinamikası ilə birbaşa bağlıdır...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

# Rusiya və NATO generalının Bakı görüşü reallaşır - son hazırlıqlar

## **Elxan Şahinoğlu:** "Belə görüşlər Ermənistan hakimiyyəti və erməni lobbisinin yuxusuna haram qatıb"

**NATO-nun Avropada Birləşmiş Silahlı Qüvvələrinin Baş Komandanı Kertis Skaparotti və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov hazırda Bakıda keçirəcəkləri görüşü razılaşdırırlar. Virtualaz.org TASS-a istinadən xəbər verir ki, bu barədə Skaparotti yanvarın 17-də NATO-nun Hərbi Komitəsinin iki günlük sessiyasının yekunları üzrə bildirib. "Sentyabrda bu görüş barədə razılaşdıq. Hazırda həmin görüş təşkil olunur" - o qeyd edib.**

Xatırladaq ki, daha öncə "BuzzFeed" portalı 2018-ci ilin yanvar ayında NATO-nun Avropada Birləşmiş Silahlı Qüvvələrinin Baş Komandanı Kertis Skaparottinin və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun Bakıda görüş keçirəcəklərini yazmışdı.

Bu, 2013-cü ildən bəri bu səviyyədə keçiriləcək ilk görüş olacaq. O vaxt ABŞ prezidenti Barak Obamanın administrasiyası NATO-nun Avropada Birləşmiş Silahlı Qüvvələrinin Baş Komandanının rusiyalı həmkarı ilə təkbətək görüşlərini qadağan etmişdi. Bunu mənbəyə Skaparottidən əvvəl həmin vəzifəni tutmuş Filipp Bridlav təsdiqləmişdi.

Qeyd edək ki, günlər öncə generallar arasında olan telefon danışığından sonra görüşün olacağı barədə tərəddüdlər yaranmışdı. Hətta bəzi KİV-ləri generalların Bakı görüşünün baş tutmayacağı barədə xəbərlər yaymışdılar. Amma görünən budur ki, bu görüş ayın sonlarına təsadüf edəcək. Ekspertlər dünyanın əsas güc



mərkəzlərinin görüşü üçün növbəti dəfə Bakının seçilməsini ölkəmiz adına böyük hadisə adlandırırlar.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu görüşün gecikməsini sırf texniki səbəblərlə bağlayır:** "ABŞ dünyanın, Rusiya isə bölgənin əsas dövlətlərindəndir. Ona görə də bu iki ölkənin rəsmisi və ya yüksək rütbəli generalı Bakıda görüşmək istəyirlərsə, buna heç bir qüvvə mane ola bilməz. Əgər görüş gecikirsə, bu, sırf texniki məsələlərlə bağlı ola bilər. Əlbəttə, bu tip yüksək səviyyəli görüşlərin Bakıda keçirilməsi Ermənistan hakimiyyətinin və dünyadakı erməni lobbisinin yuxusuna haram qatıb. Bakının görüş yeri kimi seçilməsi Azərbaycanın yürütdüyü xarici siyasətlə bağlıdır. İrəvan görüş yeri kimi ona görə seçilə bilməz ki, Rusiyanın forpostu və quberniyasıdır, amerikalılar rusiyalı həmkarları ilə orada görüşməzlər. Tiflis ona görə seçilə bilməz ki, xarici siyasəti Qərbə yönəlib, Rusiya ilə diplomatik münasibətləri yoxdur. Tiflisə də rus diplomatlar və hərbçilər getməzlər. Azərbaycanın həm Ermənistandan, həm də Gürcüstandan fərqi odur ki, Rusiya və ABŞ-la əməkdaşlıq edir, heç birini özünə ağa saymır. Buna görə də Moskva və Vaşinqton Bakıya eyni dərəcədə hörmət edir. Görüşlərin Bakıda keçirilməsinin birbaşa Dağlıq Qarabağ münaqişəsinin həllinə təsiri yoxdur. Bakıda görüşən tərəflər Qarabağ münaqişəsini müzakirə etmirlər, bu, onların səlahiyyətinə də aid deyil. Müzakirə predmeti fərqlidir. Buna baxmayaraq, Rusiya və ABŞ yüksək rütbəli generallarının, baş qərargah rəislərinin Bakıda mütəmadi görüşmələri Azərbaycanın regional dövlət kimi statusunu artırır. Azərbaycan sabit və dünyəvi müsəlman ölkəsidir, ətraf bölgələrdə də sabitliyin tərəfdarıdır. Azərbaycan Suriyanın ərazi bütövlüyünü dəstəkləyir, Əfqanıstana yardım edir və digər humanitar aksiyalarda da iştirakını əsirgəmir. Azərbaycanın bu rolu beynəlxalq aləmdə yüksək qiymətləndirilir. Türkiyə ilə Rusiya arasında münasibətlər gərginləşəndə də Azərbaycan vasitəçilərdən biri idi. Üstəgəl, Azərbaycanın iştirakçısı və dəstəkçisi olduğu regional enerji layihələri və xarici ölkələrə yatırdığımız investisiyaların da müsbət rolu var".

**Politoloq belə görüşlərin nəticəsiz olmadığını düşünür:** "Bakının dialoq məkanına çevrilməsi heç də o demək deyil ki, Azərbaycan paytaxtında müzakirə olunan məsələlər həllini tapır. Ancaq bu görüşlər nəticəsiz də qalmır. Məsələn, ABŞ-la Rusiya arasında müxtəlif mövzular ətrafında ciddi fikir ayrılıqları var. Suriyada da iki dövlət arasında əməkdaşlıq minimum səviyyədədir. Çünki maraqlar fərqlidir. Buna baxmayaraq, Rusiya və ABŞ baş qərargah rəislərinin Bakıda keçirdikləri ilk görüşdən sonra bu iki dövlətin hərbi idarələri arasında Suriya ərazisində minimum səviyyədə olsa da, koordinasiya başladı. ABŞ-Rusiya münasibətlərinin normallaşmasının beynəlxalq aləmə də müsbət təsiri var. Sadəcə, Rusiya Krımı işğal etdiyinə və bu məsələdə geri addım atmadığına görə beynəlxalq aləmdə qeyri-sabit vəziyyət hələ uzun müddət davam edəcək. Hər halda, Bakı dialoqu vəziyyətin daha çox gərginləşməsini əngəlləyir və az da olsa ortaq nöqtələrin tapılmasına şərait yaradır".

**❑ Cavanşir ABBASLI**
**❑ "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 13 (6902) 19 yanvar 2018

# YAP-dan prezident seçkisində ittifaq qurmaq açıqlaması

**Türkiyədə 2019-cu ildə keçiriləcək prezident seçkisinə xeyli müddət qalsa da, seçki hazırlıqları indidən başlayıb. Müxalifətdə olan Milliyyətçi Hərəkat Partiyasının başqanı Dövlət Baxçalının hazırkı prezident Rəcəb Tayyib Ərdoğanı seçkilərdə dəstəkləyəcəklərini bəyan etməsi isə çox böyük əks-səda doğurub və müzakirələrə yol açıb. Artıq Ərdoğanın rəhbərlik etdiyi hakim AKP ilə Baxçalının lideri olduğu MHP arasında ittifaqın rəsmiləşdirilməsinə də hazırlıq gedir. Bu, Türkiyənin müasir tarixində ilk hadisədir ki, qatı müxalifət mövqeyində partiya hakimiyyətdə olan partiyanın namizədini müdafiə edir və iki partiya arasında ittifaq qurulur.**

## Siyavuş Novruzov: "Türkiyədə belə bir təcrübə indi yaşanırsa, Azərbaycanda 1993-cü ildən belədir və bu dəfə də belə olacaq"

Azərbaycanda da prezident seçkisi yaxınlaşır. Özü də bizdə seçkilər qardaş ölkədəki seçkidən öncə - 2018-ci ilin oktyabrında keçiriləcək. Bəs Türkiyədə yuxarıda qeyd etdiyim hadisəyə bənzər siyasi hadisə Azərbaycanda da yaşana bilərmi? Hakimiyyətdə olan Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədini müxalifətdə olan partiyalardan hansınınsa müdafiə etməsi və partiyalar arasında ittifaq qurulması gözlənilirmi?

**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Türkiyədə belə bir təcrübə indi yaşanırsa, Azərbaycanda 1993-cü ildən indiyə qədər keçirilən prezident seçkisində dəfələrlə yaşanıb. Azərbaycanda bunun çoxsaylı nümunələri var: "Azərbaycan Respublikasının Seçki Məcəlləsinə uyğun olaraq prezident seçkisi ilə əlaqədar əvvəllər ayrı-ayrı təşkilatlar, müəssisələr, ictimai birliklər və digər qurumlar tərəfindən namizəd irəli sürülürdüsə, indi Seçki Məcəlləsinin tələbinə görə ya öz təşəbbüsü ilə namizədlik irəli sürülür, ya da seçicilərin təşəbbüs qrupu yaradılır, yaxud da siyasi təşkilat tərəfindən namizəd irəli sürülür. Yeni Azərbaycan Partiyasının namizədi həmişə partiyanın qurultayı tərəfindən irəli sürülür. Təcrübə göstərir ki, çoxlu sayda partiyalar, qurumlar namizədlərini irəli sürürlər. Baxmayaraq ki, onların bir hissəsinin buna hüquqi cəhətdən əsası var, bir hissəsinin isə namizəd irəli sürmək hüququ yoxdur. Sadəcə olaraq, öz münasibətlərini bildirirlər. Rəsmi qaydada Yeni Azər-



baycan Partiyası tərəfindən namizəd irəli sürülüb qeydiyyatdan keçdikdən sonra bu qurumlar və partiyaların bir çoxu Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləyirlər. Seçki kampaniyasında, təbliğat-təşviqat işində və digər seçki ilə bağlı məsələlərdə yaxından iştirak edirlər. Dəfələrlə belə olub ki, öz namizədliyini irəli sürməyən siyasi partiyaların rəhbərləri-söhbət parlamentdə təmsil olunan və olunmayan partiyalardan gedir-partiyaları ilə birlikdə Yeni Azərbaycan Partiyasının namizədini dəstəkləmələri barədə rəsmi bəyanatlarla çıxış ediblər. Sonra isə partiyaların qurultaylarında bu barədə verdikləri qərarı rəsmi qaydada bizə təqdim ediblər. Yeni Azərbaycanda Türkiyədən uzun illər öncə hələ 1993-cü ildən başlayaraq bu cür proses baş verib. Ortada çoxlu sayda nümunələr var. Digər partiyalarda isə bu hal baş vermir. Siz dəfələrlə şahidsiniz ki, vahid namizəd prinsipi məsələsi ortaya atılır və sonda isə heç bir razılaşma əldə edə bilmirlər. Nəticədə fərdi qaydada hər təşkilat öz namizədini irəli sürür".

**S.Novruzov qeyd etdi ki, qarşıdakı seçkidə də Yeni Azərbaycan Partiyasının namizədinin digər siyasi partiyalar tərəfindən müdafiə olunması təcrübəsinin yaşanacağı gözlənilir:** "Artıq indidən müraciətlər var. Qeyd edirlər ki, ayrıca namizəd irəli sürməyəcəklər və Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədini dəstəkləyəcəklər".

❑ **Etibar SEYİDAĞA,**
❑ **"Yeni Müsavat"**

# Türkiyədə FV rejimi yenidən uzadıldı-səbəblər

## Ekspertlər düşünür ki, 2018-ci il Türkiyə üçün olduqca kritik bir il olacaq

**Türkiyə Milli Təhlükəsizlik Şurası ölkədə fövqəladə vəziyyət rejiminin növbəti dəfə uzadılmasını məqsədəuyğun sayıb. Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə keçirilən iclasda Təhlükəsizlik Şurası hökumətə ölkədə fövqəladə vəziyyət rejimini daha 3 ay müddətinə uzatmağı tövsiyə edib.**

Qeyd edək ki, 2016-cı ilin iyulunda baş verən FETÖ qiyamından sonra indiyə qədər Türkiyədə 6 dəfə fövqəladə vəziyyət rejimi uzadılıb və son müddət yanvarın 19-na qədər idi. Türkiyə Böyük Millət Məclisinin böyük ehtimallar təsdiqləyəcəyi bu qərarın müddəti aprelin 19-na qədər olacaq.

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli** hesab edir ki, bu qərar zərurətdən doğur: "İndiki şəraitdə daha 3 ay fövqəladə vəziyyət rejiminin uzadılması zərurətdən irəli gəlir. Türkiyə çox önəmli Şimali Suriya əməliyyatına başlayır. Prezident Ərdoğan son çıxışlarının birində Türkiyədən sonra Suriyada da PKK terrorçularını son yuvasına qədər qovacaqlarını bildirdi. Buna görə də daxili təhlükəsizlik çox önəmlidir. PKK, FETO, İŞİD təhlükəsi hələ də qalır. Türkiyə fövqəladə vəziyyəti uzatmaq qərarı düzgün addımdır. Məhz Türkiyənin təhlükəsizliyi üçün iqtidar fövqəladə vəziyyət rejimini uzatmağa məcbur oldu. Fikir verin, son bir ildə Türkiyədə terrorun qarşısı kifayət qədər alındı, terrorçulara indiyə qədər vurulmayan zərbələr endirildi. PKK Türkiyədə demək olar ki, tam məhv edildi. Bu bir daha onu göstərir ki, fövqəladə vəziyyət rejiminin uzadılması Türkiyə dövlət təhlükəsizliyi üçün zərurətdən irəli gələn məcburi addımdır".

**Politoloq Nəzakət Məmmədova Türkiyə hökumətinin bu qərarı verməyə məcbur olduğunu düşünür:** "Türkiyə Anayasasının 120-ci maddəsinə əsasən Təhlükəsizlik Şurası hökumətə fövqəladə vəziyyət rejimi tətbiq etmək tövsiyəsi verə bilər. Bu, ilk dəfə 2016-cı il iyulun 21-də, yəni çevriliş cəhdindən bir həftə sonra elan olundu. Həmin vaxtdan etibarən Türkiyəyə qarşı daxili və xarici təhdidlər ara vermədən davam edir. Ona görə də prezident Ərdoğanın Milli Təhlükəsizlik Şurasından bu qərara razılıq alaraq onu hökumətə tövsiyə etməsi anlaşılandır. Prezident özü də dəfələrlə bildirib ki, bu, haqq və azadlıqların məhdudlaşdırılması üçün deyil, əksinə, qorunmasına yönəlmiş bir tədbirdir. Fövqəladə vəziyyət rejimində prezident və hökumət parlamentin razılığı olmadan belə qərarlar qəbul edə bilər. Çünki istənilən qərarın parlamentdə mü-



zakirəsi və qəbulu vaxt aparan prosesdir, amma ölkənin təhlükəsizliyinə təhdid olarsa, prezidentin təcili qərarlar qəbul etmək hüququna malik olduğu hallar olur ki, bu da fövqəladə vəziyyət rejimidir. Fövqəladə vəziyyət rejimində Prezidentin sədrliyi ilə toplanan Nazirlər Kabineti qanun hökmündə olan qərarnamələr çıxara bilər və bu qərarnamələrdən Konstitusiya Məhkəməsinə şikayət etmək olmaz. Xüsusilə terror təhlükəsinə qarşı dərhal tədbirlər görülməsi üçün fövqəladə vəziyyət rejimi olmalıdır. Doğrudur, bu qərar Avropa Birliyinin narahatlığına səbəb olmuşdu. Çünki onlar üzvlüyə namizəd ölkə kimi Türkiyənin bu qərarının insan hüquq və azadlıqlarını məhdudlaşdıra biləcəyini düşünürdülər. Lakin bir sıra Avropa ölkələrində terror baş verdikdən sonra onlar da fövqəladə vəziyyət elan etdilər və yəqin ki, Türkiyəni daha yaxşı başa düşürlər.

Prosedur belədir ki, Təhlükəsizlik Şurasında ilkin müzakirədən sonra fövqəladə rejimin uzadılması qərarı prezidentin sədrliyi ilə Nazirlər Kabinetinin iclasında müzakirə olunur və Məclisə təqdim olunaraq onun razılığı alınır.

FETÖ-nün çevriliş cəhdindən sonra artıq 6-cı dəfə bu qərar uzadılmış olur. Uzadılma səbəbləri isə qeyd etdiyimiz kimi, həddindən artıq çoxdur. Düşünürəm ki, 2018-ci il Türkiyə üçün olduqca kritik bir il olacaq. Həm 2019-cu il seçkiləri ərəfəsində həlledici olması, baxımından, həm də Suriya məsələsinin həlli və bunun birbaşa Türkiyənin suverenliyi və ərazi bütövlüyünə təsiri baxımından. Türkiyə daima bəyan edib ki, ölkəyə qarşı çevriliş cəhdlərinin yenidən törədilməsi istisna edilmir. Eyni zamanda terror aktları təhlükəsi hələ var. Odur ki, belə bir şəraitdə bu qərar olduqca düzgün addımdır".

❑ **Cavanşir ABBASLI**
❑ **"Yeni Müsavat"**

# Güc strukturları dini ekstremizmə qarşı birləşdi

## Arzu Nağıyev: "Bu, tək Azərbaycan üçün deyil, həm də region üçün problemdir"

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti arasında dini ekstremizmə qarşı mübarizənin 2018-ci il ərzində də davam etdirilməsi məqsədilə Tədbirlər Planı imzalanıb. Mətbuata verilən məlumata görə, Tədbirlər Planında dini ekstremizmə və onu doğuran səbəblərə qarşı birgə mübarizənin aparılması, bu istiqamətdə fəaliyyət göstərən qurumlar arasında koordinasiya işinin təşkili məqsədilə respublikanın bütün bölgələri əhatə olunmaqla, seminar-müşavirələrin keçirilməsi nəzərdə tutulub. İctimaiyyət nümayəndələrinin də cəlb olunacağı bu tədbirlərdə Azərbaycan Respublikasında mövcud dövlət-din münasibətləri, bu sahədəki təhdidlər, eləcə də dini ekstremizmin yaranma səbəbləri və ona qarşı mübarizənin hüquqi əsasları, ölkəmizdəki multikultural mühit və tolerantlıq ənənələri, müxtəlif dinlər və məzhəblər arasında əməkdaşlığa dair mövzularda geniş fikir mübadiləsinin aparılması planlaşdırılır.**

Təbii ki, hazırda dünyada tüğyan edən dini ekstremizmə qarşı önləyici tədbirlərin görülməsi təqdirəlayiqdir. Lakin suallar yaranır ki, Azərbaycanda dini ekstremizm təhlükəsi nə dərəcədə ciddidir?

**Mövzu ilə bağlı təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev "Yeni Müsavat"a danışıb:** "Bu, tək Azərbaycan üçün deyil, həm də region üçün problemdir. Həmçinin bu məsələlər sərhədlərdən çox da uzaqda olmayan ərazilərdə özünü çox qabarıq şəkildə büruzə verir. Hətta Rusiya xüsusi xidmət orqanlarının nümayəndələri dəfələrlə MDB məkanında müəyyən problemlərin yarana biləcəyi ehtimalı ilə bağlı bəyanatlar veriblər. Dini ekstremizmlə məşğul olan və bundan istifadə etməklə terror təşkilatlarına üzv olan qruplaşmalar öz adını dəyişsə də, məramı, məqsədi dəyişmir. Məhz xüsusi xidmət orqanlarının da qarşısında dayanan əsas məsələ bu problemlərin qarşısını almaq, daha doğrusu, əvvəlcədən məlumat toplayaraq bu istiqamətdə müvafiq addımlar atmaqdır. Düşünürəm ki, dünyada tüğyan edən dini ekstremizmlə bağlı mübarizə aparmaq labüddür.

Lakin bu demək deyil ki, bu problem Azərbaycanda böyük vüsət alıb. Sadəcə, qabaqlayıcı məlumatların alınması, maarifçilik işinin davam etdirilməsi, eyni zamanda erməni terrorunun baş alıb getdiyi yerdə bu cür addımların atılması təqdirəlayiqdir".

❑ **Xalidə GƏRAY,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 13 (6902) 19 yanvar 2018

**Son bir neçə gündə sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və onun həbsdə olan qudası, Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin adı ətrafında yeni hərəkətlilik başlayıb.**

# Qudaların "ikinci başı" da həbsə gedir-Eldar Mahmudov üçqat atəş altında

## Cahangir Hacıyevin yaxın adamlarından hesab olunan Emin Sadiqin saxlanılmasından sonra sabiq nazirin ortağının da həbsi xəbəri yayıldı; Eldar Mahmudov üçün "əcəl zəngi"...




Belə ki, bir neçə milyardın ölkə xaricinə daşınması və Beynəlxalq Bankın talanmasına görə 15 il həbs cəzası almış C.Hacıyevin yaxın adamlarından hesab olunan Emin Sadiq qonşu ölkələrdən birində yaxalanıb və Bakıya ekstradisiya olunub. Doğrudur, bu adamın adı geniş oxucu kütləsinə o qədər də tanış deyil, üstəlik, hələ ötən il də onun həbsi ilə bağlı xəbərlər yayılmışdı. Amma bu xəbərlər rəsmi şəkildə nə təsdiqləndi, nə təkzib edildi.

Virtualaz.org hüquq-mühafizə orqanlarındakı mənbələrə istinadən Emin Sadiqin yanvarın 13-də Bakıya ekstradisiya olunduğunu bildirib. İstintaqın versiyasına görə, E.Sadiq Cahangir Hacıyevin və Beynəlxalq Bankın işi üzrə əsas fiqurantlardan biridir, bankın talanmasına yönəlmiş maliyyə maxinasiyalarının birbaşa iştirakçısıdır. E.Sadiq konkret olaraq Qazaxıstanda neft yatağının istismarına yönəlmiş investisiyanın mənimsənilməsində ittiham olunur. Söhbət Azərbaycan Beynəlxalq Bankının Rusiyadakı törəmə bankı "MBA-Moskva" tərəfindən ayrılmış 60 milyon dolların mənimsənilməsindən gedir. Habelə E.Sadiq "MBA-Moskva" bankına veksellərin satışında dələduzluq əməlinə yol verib.

Bildirilir ki, Cahangir Hacıyev "Hafka" kimi tanına biznesmen Hafiz Məmmədova məxsus "Bahar Energy" şirkətini reyder üsulu ilə ələ keçirdikdən sonra şirkətinin idarəçiliyini Emin Sadiqə həvalə edib. E.Sadiqin həbsi xəbəri təsdiqlənərsə, bu, həm Beynəlxalq Bank talançılığında, həm də digər maliiyyə maxinasiyalara yeni yön verə bilər.

Yanvarın 17-də isə hüquq-mühafizə orqanları sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun cinayət ortaqlarından biri Sahib Ağayevi Qazaxıstanda saxlayaraq, Bakıya ekstradisiya ediblər. Sahib Ağayev pulların yuyulmasında və iri məbləğin mənimsənilməsində ittiham olunur. Öz ortağı ilə birlikdə S.Ağayev Bakıda keçirilmiş Avropa Oyunları ərəfəsində sonradan ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi ilə Avropa Oyunlarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə xüsusi avadanlığın gətirilməsi və quraşdırılması üzrə müqavilə bağlayıb (virtualaz.org). İstintaq S.Ağayevi 30 milyon manatın mənimsənilməsində ittiham edir. Bir müddət sonra həmin pullar S.Ağayevin xarici şirkətinin hesabına yatırılıb. Bundan başqa, Eldar Mahmudovun cinayət ortağı xüsusilə böyük məbləğdə vergidən yayınmada da ittiham edilir.

E.Mahmudovun vəzifəsindən azad edilməsindən sonra S.Ağayev Qazaxıstana qaçıb və Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən axtarışda olub.




"İkibaşlı maxinasiya əjdahaları" olan qudaların işi üzrə həbslər C.Hacıyev üçün o qədər də təhlükəli deyil. Çünki o, artıq həbsxana həyatına öyrəşməyə başlayıb. Amma E.Mahmudov üçün isə bu, artıq "əcəl zəngi" hesab oluna bilər.

Rəsmi olaraq dekabrın 15-də üçüncü dəfə Baş Prokurorluğun Ağır Cinayətlərə qarşı İstintaq İdarəsində ifadə verən sabiq nazirin onsuz da vəziyyəti yaxşı deyildi. Eldar Mahmudov köməkçisi və qohumu, hazırda həbsdə olan Vüqar Mahmudovun işi üzrə istintaqa cəlb edilib. Bu iş üzrə onun azı iki dəfə ifadə verdiyi məlumdur. Sonuncu dəfə isə sabiq nazir oğlu Anar Mahmudovun biznesi, ölkədən çıxardığı külli miqdarda pulla bağlı dindirilib. A.Mahmudovun ölkədən xaricdəki şirkətlərinin adına çıxardığı vəsaitin ümumi məbləğinin 1 milyard dollardan artıq olduğu deyilir. İndi E.Mahmudovun həm köməkçisi, həm oğlunun işi üzrə dindirilməsinin ardından ortaqlarından biri Sahib Ağayev həbs edilib.

Bütün yollar E.Mahmudova aparır, bəs Eldar Mahmudov hara aparılacaq?

❑ "YM"

# 20 Yanvarla bağlı açılmayan sirlər-Sülhəddin Əkbər danışır



## "Arxivlər açılmayınca, bu işlər haqqında ətraflı bilgilər əldə etmək mümkün olmayacaq"

**1990-cı ilin 20 yanvarında Bakıda törədilən dəhşətli qırğından 28 il ötür. Faciənin üzərindən bu qədər uzun zaman keçməsinə baxmayaraq, hər ilin bu günlərində hadisə ətrafında yeni-yeni müzakirələr açılmaqla yanaşı, ənənəvi məsələlər də gündəmə gəlir.**

Bu il də bu sarıdan boş keçmir. Ən çox da suallar doğuran və müzakirələr yaradan mövzulardan biri 20 Yanvar faciəsi ilə bağlı hələ də açılmayan sirlərin qalıb-qalmaması ilə bağlıdır. Çoxları hesab edir ki, faciədə bir çox faktlar ört-basdır edilib. Bununla yanaşı, hadisəyə verilən ümumi rəy də nəzərə alınaraq, faciənin hansı dairələr tərəfindən təşkil olunduğu, burada kimlərin məsuliyyət daşıdığı önə çəkilərək, əsl həqiqətlərin indiyə qədər zamanla üzə çıxdığını düşünənlər də az deyil.

KQB-nin arxivlərinin açılmaması hər zaman olduğu kimi, bu günlərdə də gündəmə gəlir. Arxivlərin açılacağı təqdirdə 20 Yanvar faciəsi ilə bağlı bir çox faktların üzə çıxacağına ümidlər kifayət qədər böyükdür. Bundan əlavə, həmin dövrdə xalq hərəkatına rəhbərlik edən Azərbaycan Xalq Cəbhəsinin üzərinə də o zamandan başlayan hücumlar bu günlər də davam edir. Sabiq prezident Ayaz Mütəllibov və AXC-nin rəhbərlərindən olan Nemət Pənahlının bu günlərdə "Yeni Müsavat"a verdikləri müsahibələrdə faciənin əsas günahkarı kimi AXC-ni göstərmələri hələ də bu ittihamların sıradan çıxmadığını göstərdi.

**Bütün bunlarla bağlı 20 Yanvar faciəsindən bir ay öncəyə qədər AXC-nin rəhbərlərindən olan və 1992-93-cü illərdə Milli Təhlükəsizlik Nazirliyinin birinci müavini vəzifəsini tutan Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbərin münasibətini öyrəndik. Sabiq MTN-çi hüquqi baxımdan hadisəyə lazımi qiymətin verildiyini bildirdi:** "Söhbət konkret olaraq cinayət hadisəsinin istintaqından gedirsə, bunu cinayət materialları ilə tanış olan şəxslər, yəni prokurorlar, müstəntiqlər, bu işdə iştirak edən tərəflər və onların vəkilləri daha dəqiq məlumat verə bilərlər. Çünki onlar daha geniş və detallı bilgiyə sahibdirlər. Bir faktı hər kəs bilməlidir ki, həmin dövrdə bu cinayət işinin araşdırılması, yəni istintaqı ilə MTN məşğul olmayıb, mənim nazir müavini olduğum dönəmdə də. KQB arxivləri ilə bağlı Moskva böyük təmizləmə işi aparıb. Xüsusilə Moskvanın buradakı fəaliyyəti, bu işə cəlb olunmuş əhəmiyyətli agentlər, onların şəxsi işləri, eyni zamanda iş fəaliyyətləri barədə olan dosyelərin hamısı demək olar aparılıb. Təbii ki, istənilən halda arxivdə nəyisə tapmaq mümkündür. Amma xüsusi əhəmiyyətli nəyinsə tapılacağını düşünmürəm. Ondan sonra bir neçə dəfə hakimiyyət dəyişiklikləri olub. Hər hakimiyyət də öz maraqlarına uyğun orada təmizləmə işi aparıb. Əgər ora açılacaqsa, təbii ki, kimlərinsə haqqında məlumatlar oradan çıxa bilər. Amma yenə deyirəm ki, əsas şəxslər barəsində böyük ehtimalla məlumatlar çıxmayacaq. Bir də bu iş daha çox ziyan gətirə bilər. Çünki hadisədə əsas başlıca rol oynayanlar gizlədiləcək. Avtoritar cəmiyyətlərdə belə olur, mühasibi tuturlar, amma milyonlar, milyardlar mənimsəyənlər kənarda qalırlar. Bu işdə də böyük ehtimalla elə ola bilər. Moskvada arxivlər açılmayınca, bu işlər haqqında ətraflı bilgilər əldə etmək mümkün olmayacaq. KQB ilə məxfi əməkdaşlıq etmiş şəxslərdən tutmuş etibarlı şəxslərə qədər, bu işdə rolu olan partiya, hüquq-mühafizə orqanları işçilərinə qədər olan məlumatlar Moskvada saxlanılır. Arxivlərin açılmamasına gəlincə, buna kim mane olur ki? Parlament qərar qəbul etsin, bununla da arxivlər açılsın. Mətbuat niyə bu barədə danışmalıdır ki".

**S.Əkbər 20 Yanvar faciəsinin ola biləcəyini hələ bir müddət öncədən hiss etdiyini də qeyd etdi:** "Mən 1989-cu ildə hadisələrin hansı istiqamətdə getdiyini görüb AXC-nin İdarə Heyətindən istefa verdim. Fikirlərimi bununla əsaslandırmışam ki, artıq hadisələr qeyri-konstruktiv istiqamətdə gedir, idarə heyəti prosesləri idarə edə bilmir, kənardan müdaxilələr var, hadisələr zorakılıq istiqamətində gedir, Moskvanın məqsədi Xalq Cəbhəsini zorakılıq istiqamətinə çəkib, yeni konstitusiya çərçivəsindən çıxarmaqla onu sərt şəkildə cəzalandırmaqdır. Həmin dövrdə yaşayanlar yaxşı bilirlər ki, Xalq Cəbhəsinin keçirilən konfransında 10 dekabrda mən istefa vermişəm. 20 Yanvar faciəsi baş verməyə bilərdimi kimi sualınıza gəlincə, deyə bilərəm ki, tarix bir variantlıdır, tarix haqqında geri dönüb danışmağı sevmirəm. Əgər qarşısını almaq mümkün olsaydı, hər halda, alınardı. Məsələyə geniş rakursdan yanaşsaq, Xalq Cəbhəsi həmin vaxt o qədər böyümüşdü ki, qarşıdan gələn seçkilərdə Xalq Cəbhəsinin əzici üstünlüklə qalib gəlib, dinc yolla hakimiyyətə gələcəyini Moskva görürdü. Başlıca məqsəd Xalq Cəbhəsini dinc, demokratik mübarizə müstəvisindən zorakılıq müstəvisinə çəkmək, qanundankənar işlərə sövq etməklə cəzalandırmaq idi. Ona da nail ola bildilər. Burada da Moskvanın partiya, sovet təsərrüfat orqanlarındakı adamlarının, eyni zamanda KQB-nin hərəkat içərisindəki adamlarının böyük rolu oldu. Onlar da istədiklərinə nail oldular, sərhədlərin sökülməsindən tutmuş Bakıda baş verən hadisələrə qədər. Bütün bunlar Xalq Cəbhəsi daxilindəki radikal ünsürlər tərəfindən idarə olunan bir proses idi".

❑ **Cavanşir ABBASLI,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 13 (6902) 19 yanvar 2018

# Qərbin düşmənlərinin əhatəsindəki Azərbaycan...

## Belə vəziyyət ölkəmiz üçün nə qədər təhlükədir?

**Azərbaycan Qərbin özünə düşmən hesab etdiyi iki böyük dövlətin-Rusiya və İranın arasındadır. Rusiya və İrana qarşı ABŞ-ın münasibəti getdikcə daha da sərtləşir. Fevral ayında Rusiyaya qarşı sanksiyaların daha böyük dalğası gəlir. Azərbaycanın həm Rusiya, həm də İranla qonşu və güclü dövlətlər olaraq sıx əməkdaşlıq münasibətinin olduğu bəllidir. Bu isə ortaya bəzi suallar çıxarır. Belə vəziyyətdə bizim ölkəmizin də Qərbin qəzəbinə gəlməsi ehtimalı varmı? Eyni zamanda belə vəziyyətdə Azərbaycanın xarici siyasəti necə qurulmalıdır?**

**Politoloq Elçin Mirzəbəyli** "Yeni Müsavat"a bildirdi ki, indiki halda Qərbin Rusiyaya qarşı münasibəti İranla müqayisədə daha sərtdir. Təbii ki, ABŞ prezidenti Donald Trampın İranla bağlı ritorikasını nəzərə almasaq. Avropa İttifaqının aparıcı dövlətlərinin nüfuzlu şirkətləri ötən ilin son 6 ayı ərzində İran iqtisadiyyatına böyük sərmayə yatırıblar. Bu sırada Fransanın "Total" və "Renault" şirkətləri ilə imzalanmış uzunmüddətli meqakontraktları qeyd etmək olar. 2017-ci ilin sentyabr-noyabr aylarında İran "Siemens", "Volswagen Airbus" və digər nəhəng Qərb şirkətləri ilə uzunmüddətli müqavilələr imzalayıb. Bu müqavilələrdə İran iqtisadiyyatının ayrı-ayrı sektorlarına milyardlarla dollar vəsaitin yatırılması nəzərdə tutulur. Avropanın özünün İranla bu qədər iqtisadi əməkdaşlığı ortada olduğu halda, Azərbaycana qonşuluğunda olan İranla əməkdaşlıq münasibətlərinə görə təzyiq edilməsi gözlənilən deyil və buna görə bizi sıxışdırmaları-



na arqumentli cavablarımız var: "Digər tərəfdən də Azərbaycanın İran iqtisadiyyatı ilə elə də ciddi bağlantıları yoxdur. Həyata keçirdiyimiz ortaq layihə Şimal-Cənub nəqliyyat dəhlizinin Qərb marşrutudur. Bu marşrutu da hər hansı bir təhlükə gözləmir. Buna görə də bizə Qərbdən hansısa təzyiq olacağını düşünmürəm".

**Ekspert qeyd etdi ki, Rusiya ilə bağlı isə əks proses baş verib. Belə ki, 2017-ci il ərzində əksər Avropa brendləri Rusiya bazarını tərk ediblər. Təkcə 2017-ci ilin son həftəsi ərzində Rusiyanın qiymətli kağızlar bazarından geri çəkilən Avropa mənşəli investisiyaların məbləği 126 milyon dollar təşkil edib:** "Göründüyü kimi, İrana münasibətdə ortada daha çox ritorika var və belə bir mənzərə yaranıb ki, Qərbin məqsədi daha çox Rusiyanı zəifləməkdən ibarətdir. Bu prosesin və Rusiyaya qarşı qəbul edilməsi gözlənilən növbəti sanksiyaların Azərbaycana təsirinə gəldikdə isə hesab edirəm ki, bizi Rusiya ilə iqtisadi münasibətlərimizə görə hər hansı bir təhlükə gözləmir. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan iqtisadiyyatının heç bir sahəsi Rusiyadan və İrandan asılı deyil. Ölkənin milli gəlirlərinin əhəmiyyətli hissəsi enerji sektorundan gəlir. Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji layihələrinin isə bu iki dövlətlə hər hansı bir əlaqəsi yoxdur. Rusiyaya qarşı yeni sanksiyaların əsasən enerji, bank sektoru və müdafiə sənayesi kompleksini əhatə edəcəyi gözlənilir və Azərbaycanın bu sahələrdə Rusiyadan hər hansı bir asılılığı yoxdur. Əlbəttə, burada Azərbaycanın Rusiyadan silah aldığı və müdafiə sənayesi kompleksi ilə bağlı sanksiyaların ölkəmizə də təsir göstərəcəyi vurğulana bilər. Amma Rusiyanın müdafiə sənayesindən əldə etdiyi gəlir bu ölkənin ümumi daxili məhsulunun cəmi 4,2 faizini təşkil edir və bu sahəyə tətbiq edilən sanksiyalar həm Rusiya iqtisadiyyatına ciddi təsir göstərə, həm də ABŞ üçün effektiv nəticə verə bilməz. Digər tərəfdən, sanksiyalarda bir qayda olaraq adi silahlar yer almır. Rusiyanın Azərbaycana satdığı silahlar da əsasən adi silahlar kateqoriyasına daxildir. Azərbaycan ABŞ-dan silah almadığı üçün Rusiyadan silah almağımıza görə bizə təzyiq edilməsi də gözlənilən deyil".

Politoloq hesab edir ki, Azərbaycan hazırda tətbiq etdiyi xarici siyasi xətti yürütməkdə davam etsə, ABŞ-ın düşmənlərinin ortasında olmağımız ciddi problemlərdən yan keçməyimizə gətirib çıxarar.

**❑ Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# ABŞ-ın yeni kürd dövləti planı: Raqqa paytaxt olacaq

## "Kafkassam" başqanı Hasan Oktay: "Kürdlər bu prosesin məğlub tərəfi olacaq"

**Suriyanın şimalında kürd dövləti yarana bilər. Son zamanlar bu iddia Türkiyə və Qərb mediasında tez-tez səslənməyə başlayıb. Əslində bu iddia üçün müəyyən əsaslar da var. Söhbət kürdlərin artıq 4 ildən çoxdur ki, Suriyanın şimalında faktiki olaraq müstəqil özünüidarə kimi fəaliyyət göstərməsindən gedir.**

ABŞ-ın son zamanlar kürdlərə dəstəyinin ciddi şəkildə artması Suriya kürd dövlətinin yaradılacağı xəbərlərinə bir az da ciddiyyət qatır. Məlum olduğu kimi, son 3 ildə, xüsusən də ötən il Pentaqon kürdləri müasir silahlarla silahlandırıb. Kürdlər faktiki olaraq ABŞ-ın İŞİD-ə qarşı koalisiyasının silahlı qüvvəsi kimi çıxış edir. Eyni zamanda hazırda rəsmi olaraq min nəfərdən çox Amerika hərbçisi kürdlərə təlim keçir və eləcə də Türkiyə ilə sərhəddə patrul xidməti həyata keçirir. İndi isə kürdlərin Suriyanın şimalında dövlətinin yaradılacağı xəbərlərinin ardınca sərhəd qoşunlarının yaradılması məsələsi gündəmə gəlib. Yeri gəlmişkən, ötən ilin sonlarında ABŞ hərbçilərinin SDQ-nin polis qüvvələrinin yaradılması ilə bağlı proqram başlatdığı haqda xəbərlər yayıldı. Yəni artıq Suriyanın şimalında məclisi, silahlı gücü (bu əsasdır - K.R.), polis və sərhəd qüvvələri olan faktiki kürd dövləti qurulma mərhələsindədir. Bəzi məlumatlara görə, ABŞ ötən ilin oktyabrında İŞİD-dən geri alınmış Raqqa şəhərini yeni yaradılacaq kürd dövlətinin paytaxtı olaraq görmək istəyir.

İki gün əvvəl isə məlum olub ki, ABŞ kürdlərə 30 minlik yeni sərhəd ordusu qurur. BBC "Reuters" agentliyinə istinadən 30 minlik ordunun yarısının SDQ-dən təşkil olunacağını və bir qisminin də Suriya-Türkiyə sərhədlərində yerləşdiriləcəyini yazıb. Bu açıqlama yayıldıqdan qısa müddət sonra təkzib olundu. ABŞ dövlət katibi Reks Tillerson media nümayəndələrinə deyib ki, Vaşinqton Suriyada kürdlər üçün "sərhəd qüvvələri" təşkil etmir. Tillerson deyib ki, məsələ "yanlış anlaşılıb". ABŞ Müdafiə Nazirliyi bəyan edib ki, İŞİD-in yenidən geri qayıtmasının qarşısını almaq üçün kürdlərə verilən təlimlər davam edəcək, ancaq "yeni ordu və ya sərhəd mühafizəsi" təşkil olunmayacaq.

Ancaq maraqlıdır ki, xarici siyasət idarəsinin rəhbəri elə həmin görüşdə deyib ki, ABŞ ordusu yaxın gələcəkdə Suriyada qalmaqda davam edəcək. O da məlum olub ki, ABŞ-ın hazırda Suriyada 2 min nəfərə yaxın hərbçisi var. Ancaq amerikalıların "təkzibi" inkardan çox, təsdiqə bənzəyir. Çünki iki sutka xəbər bütün dünya mediasında dolaşdıqdan və Türkiyədə ən yüksək səviyyədə etiraz bildiril-




dikdən sonra ABŞ dövlət katibi "yolüstü" jurnalistlərə Suriyada "sərhəd qüvvələri" yaratmadıqlarını, ancaq kürdlərə təlim keçməyə davam edəcəklərini bildirir. Tillersonun açıqlaması daha çox Türkiyəni sakitləşdirməyə hesablanmış hərəkət kimi görünüb.

Məsələ ondadır ki, kürdlərin dövlət və ya ən azından muxtar vilayət qurması kimi bir planları var və bunu gizlətmirlər. Faktiki olaraq bölgədə kürd məclisi və yerli özünüidarəsi də mövcuddur. Ancaq bu hərəkətə qonşu ölkələrin, o cümlədən Suriyanın və Türkiyənin reaksiyası necə olacaq? Türkiyə qonşuluğunda belə bir dövlətin qurulmasına hansı münasibəti göstərəcək?

**Bu sualları Türkiyənin nüfuzlu bölgə ekspertlərindən olan, "Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Hasan Oktaya ünvanladıq. Doğrudanmı belə bir layihə aktualdır, kürdlər dövlət qurur və Amerika onları dəstəkləyəcək? H.Oktay deyir ki, ABŞ-ın Suriya siyasətində, xüsusən də Obamadan sonra bir narahatlıq hiss olunur. Ekspertin fikrincə, indiki Ağ Ev kabineti Obamanın siyasi kursundan imtina edib, Türkiyə isə indi ABŞ-ın yanlış siyasətinə alət olmamaq üçün variantların sayını artırmağa çalışır:** "Bu vəziyyətdə ABŞ Türkiyəni müttəfiqlikdən qaçırmamaq üçün Ankaraya qarşı blef deyə biləcəyimiz PYD/YPG kartını işə salıb. Zahirən belə görünür ki, ABŞ tezislərini, narahatlıqları və prioritetləri bir tərəfə qoyaraq Suriyanın şimalında təhlükəsizlik zonası, ya da kürd muxtariyyəti və ya dövləti quracaqmış kimi görüntü yaradır. Bu, açıq şəkildə Türkiyəyə qarşı bir blefdir. Bölgədə Türkiyənin maraqlarına zidd olan hansısa fəaliyyət, ya da muxtariyyət qurula bilməz. Qurulsa da yaşaya bilməz. ABŞ bu kartı, sadəcə, Türkiyəyə təzyiq etmək, onu öz yanında saxlamaq üçün blef edir. Bir kürd dövlətinin qurulmasına indi heç kim icazə verməz".

**Kürdlər dövlət və ya muxtariyyət elan edərlərsə, Türkiyənin buna reaksiyası necə olacaq? Hasan Oktay deyir ki, Suriyanın şimalında kürd dövləti, yoxsa muxtariyyətinin qurulacağı sualının cavabı Türkiyənin ABŞ, yoxsa Rusiya ilə müttəfiq olacağı sualında gizlənib:** "Türkiyə və ABŞ arasında problem həllini taparsa, Vaşinqton kürd kartı ilə blef etməyi dayandıracaq, ancaq bu zaman Türkiyənin Rusiya ilə münasibətləri zədələnəcək. ABŞ-Rusiya münasibətləri qarşıdakı dövrdə daha da həssas mərhələyə qədəm qoyacaq. Bu səbəbdən də Türkiyə soyuqqanlılıqla israrlı mövqeyini davam etdirəcək. ABŞ ən son olaraq "Afrin bizim əməliyyat bölgəmizdir" kimi açıqlama verməklə əslində bizim arqumentimizi təsdiqləyir. Ancaq düşünürəm ki. Vaşinqtonun Türkiyəyə qarşı blefi öz əlində parlayacaq".

**Bəs Türkiyənin hazırkı müttəfiqləri, o cümlədən Rusiyanın və İranın reaksiyası necə olacaq? Növbəti mərhələdə Suriyada kürdlərlə müharibə ola bilərmi? Hasan Oktay deyir ki, kürdlərin bu mərhələdən qalib çıxacağı mümkün deyil:** "Kürdlər bu prosesin məğlub tərəfi olacaq. Rusiya Afrin məsələsində qeyri-rəsmi olaraq Türkiyəyə dəstək verir. Bununla da ABŞ-Rusiya rəqabətində Türkiyənin önəmi bir qədər də qabarıq görünməyə başlayıb. Kürd dövləti və ya muxtariyyəti Suriyanın ərazi bütövlüyü çərçivəsində dəyərləndirilməlidir. Məlum olduğu kimi, Türkiyə, İran və Rusiya Suriyanın ərazi bütövlüyünə qərarlıdır. Hazırda Türkiyə, İran və Rusiyanın Suriyada anlaşa bilmədiyi ən əsas məsələ Əsədin gələcək taleyidir. Türkiyə Əsəd mövzusunda tələblərini davam etdirdiyi üçün bunun ABŞ-ın siyasəti olmadığını ortaya qoymalıdır. ABŞ-la müttəfiq olduğu dövrdəki siyasəti dəyişdirdiyi, Suriyada sülhün, hüququn və insan haqlarının hakim olması üçün yeni siyasi konsepsiya ortaya qoymaq istiqamətində davam edəcəkdir. ABŞ və Rusiya arasında körpü rolunu oynaya biləcək potensiala sahib olan Türkiyə Suriyada sülhün əldə olunmasında ən əsas oyunçulardan biridir. Hazırda Afrin kimi mövzularla Türkiyənin başını qatırlar. Türkiyə müharibə aparmaqla deyil, diplomatiya ilə regionda sülhü təmin edəcək gücə sahibdir".

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**



# Elmar Məmmədyarov niyə hesabat vermir?

## Deputat: "Ən azından Qarabağ məsələsi ilə bağlı hesabat çox vacibdir"

**Torpağının 20 faizi işğal altında olan Azərbaycanın maraqlarını məharətlə müdafiə etmək, Qarabağ həqiqətlərini dünyaya çatdırmaq və digər ölkələrlə əlaqələri qurmaq üçün xarici siyasətin qarşısında önəmli vəzifələr dayanır.**

Əksər ekspertlərin fikrincə, bu gün Azərbaycanın xarici siyasəti olduqca uğurludur. Bunu digər ölkələrlə münasibətlərimiz, daxildə yaşanan sabitlik fonunda da görmək mümkündür. Lakin yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycanın torpaqları Ermənistan tərəfindən işğal edilib və bu gün də torpaqlarımız işğaldan azad olunmayıb. Elə xarici siyasətimizin əsas qayəsini də məhz itirilmiş torpaqlarımızla bağlı atılan addımlar təşkil edir. Hər il bu istiqamətdə xeyli işlər görülür, görüşlər keçirilir.

İlin yekunlarında adətən Xarici İşlər Nazirliyinin mətbuat xidməti mətbuat konfransı keçirərək son bir ilin ümumi hesabatını verir. Lakin konkret olaraq xarici işlər naziri Elmar Məmmədyarovun ötən illər ərzində hesabatına, bu istiqamət üzrə keçirdiyi mətbuat konfransına rast gəlinmir.

Onu da qeyd edək ki, xarici işlər nazirlərinin böyük mətbuat konfransı keçirərək, illik hesabat vermələri ilə bağlı bir çox ölkələrdə təcrübələr var. Elə Rusiyanın özündə hər il xarici işlər naziri Sergey Lavrov mətbuat konfransı keçirib, ilin yekunlarına dair hesabat verdikdən sonra jurnalistlərin də suallarını cavablandırır.

Azərbaycanda isə bəzi nazirlər Milli Məclisdə çıxış edərək, ilin yekunlarına dair fəaliyyətləri barədə hesabat verirlər. Elə baş nazir Artur Rasi-zadə də hər il Milli Məclisdə hökumətin illik fəaliyyəti barədə hesabat verir, daha sonra isə hesabat deputatlar tərəfindən müzakirə olunur.

Bəs xarici işlər naziri Elmar Məmmədyarov nə üçün hesabat vermir?

**"Yeni Müsavat"a danışan deputat Fərəc Quliyev bildirib ki, dəfələrlə parlamentdə məsələ qaldırıb ki, xüsusən də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı komissiya yaradılsın:**

"Həm də heç olmasa, gündəliyə Dağlıq Qarabağ məsələsi salınsın və dinləmə olsun. Bu dinləmədə isə xarici işlər nazirinin iştirakını vacib saymışam. O mənada hesab edirəm ki, ən azından bu məsələ ilə bağlı hesabat çox vacibdir. Azərbaycan normal şəkildə xarici siyasət yürüdür. Bəzilərinin, xüsusən də hakimiyyətdəki məmurların Avropa İttifaqına, Qərbə inteqrasiyaya çox fərqli, neqativ baxışları olmasına baxmayaraq, ölkə rəhbərliyi sübut etdi ki, biz Qərblə inteqrasiyada maraqlıyıq. Prezident son açıqlamasında da bildirdi ki, Avropa İttifaqı ilə saziş layihəsi hazırlanır və inteqrasiya xətti yürüdülür. Bundan əvvəl isə NATO ilə bağlı strateji əməkdaşlıq haqqında fikirlər bildirmişdi. Yaxud da Azərbaycan milli təhlükəsizlik konsepsiyasının Hərbi doktrinada NATO ilə inteqrasiyada xüsusi bir müddəaların olması göstərir ki, seçimimizi etmişik. Ancaq təbii ki, hesab edirəm istər xarici işlər naziri, istərsə də digərləri xalqa, ictimaiyyətə açıq olmalı, müəyyən məsələlərlə bağlı aydınlıq gətirməlidir. Bunu hətta ayda bir dəfə televiziyalarda etməsi də mümkündür.



Parlamentdə də xüsusi hallarla bağlı olaraq məlumatın, hesabatın verilməsi yaxşı olar".

**Politoloq Mübariz Əhmədoğlu "Yeni Müsavat"a bildirib ki, iri dövlətlər bu kimi mətbuat konfranslarından fərqli məqsədlər üçün istifadə edirlər:** "Hər dövlət siyasətini təbliğ etməklə bağlı müxtəlif variantlardan istifadə edir. Parametrinə, geosiyasi çəkisinə görə Azərbaycan və Rusiya çox fərqlidir. Əslində Lavrov illik mətbuat konfransı keçirməklə həm də beynəlxalq ictimaiyyətə bir təzyiq göstərib, özlərinin ambisiyalarını ortaya qoyur. Bizim kimi dövlətlərdə isə tez-tez hakimiyyətin gördüyü işlərin təqdimetmə tədbiri keçirilir. Hər rübdə Azərbaycanda ölkə prezidenti yekun iclaslar keçirir. Son rübdə isə ilin yekunlarına dair hesabat verilir. Bu forma orijinaldır. MDB məkanında belə bir varianta rast gəlməmişəm. Əslində bu iclasların adının fərqli olmasından asılı olmayaraq, ölkə prezidenti belə tədbirdə Dağlıq Qarabağla bağlı nə baş veribsə, onlardan da danışır, ölkə ictimaiyyətini məlumatlandırır. Vaxtilə Azərbaycanda hərbi quruculuq Dağlıq Qarabağla yanaşı gedirdi. İndi isə ölkə prezidenti hərbi quruculuğa daha xüsusi diqqət verir. Bu iclaslarda digər xarici siyasətlərlə bağlı məsələlərə münasibət bildirilir. Hamı bilir ki, 2018-ci il Cümhuriyyət ili olacaq. Yaxud da hər kəsə məlumdur ki, 2018-ci ildə Azərbaycan xaric borcu olmayan dövlətə çevrilməlidir. Göründüyü kimi, bizim formatımız digərlərindən fərqlidir. Ölkə əhalisi hakimiyyətin gördüyü siyasətdən məlumatsız deyil. Prezidentin çıxışını oxumaqla xarici siyasətlə bağlı hər şeyi öyrənmək olar. Hansı sahədə qüsur varsa, ölkə başçısının çıxışında onlara da toxunulur. 2017-ci ildə bağlanan iş yerlərindən belə prezident danışır. Ona görə də ölkə və Azərbaycan barəsində məlumat almaq istəyən insanlar informasiya acığında qala bilməzlər. Sadəcə olaraq, informasiyanı ictimaiyyətə təqdim etmək üçün bizim hökumət hansısa mətbuat konfransını, illik yekunlara dair fərqli formanı deyil, bu cür variantı seçib".

**Məsələ ilə bağlı Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin də mövqeyini almağa cəhd etsək də, buna nail ola bilmədik.**

❑ **Əli RAİS, "Yeni Müsavat"**

# Trampın mediaya qarşı yeni savaşına Bakıdan reaksiyalar



## Qulu Məhərrəmli: "Onun bu döyüşdə qalib gəlməsi mümkünsüzdür"

**ABŞ prezidenti Donald Tramp nəhayət ki, vəd verdiyi "Yalançı KİV-lər" mükafatını təqdim edib. Prezident bu barədə öz twitter səhifəsində yazıb. O sırada "New York Times", "ABC News", CNN, "Time", "Washington Post", "Newsweek"in əməkdaşlarının adı çəkilir. Tramp sonda Rusiya iddiası ilə reportaj hazırlayan bütün saytların adlarını qeyd edib.**



Xatırladaq ki, Tramp prezident seçildiyi vaxtdan bu günümüzə qədər dəfələrlə mediaya savaş açması ilə gündəmə gəlir. Hələ prezidentliyinin ilk günlərində o, CNN telekanalı və "New York Times" kimi dünyanın nəhəng media qurumlarını saxta xəbər yaymaqda ittiham etmişdi. Prezident nəhəng media qurumlarını təkcə yalan xəbər yaymaqda ittiham etmir, həm də onları ya iştirak etdiyi tədbirlərə buraxmır, ya da qovur. Son olaraq bu günlərdə Qazaxıstan prezidenti Nursultan Nazarbayevlə birgə keçirdiyi mətbuat konfransında CNN-in müxbiri Cim Akostanı konfransdan uzaqlaşdırıb.

Beləcə, Ağ Ev başçısının mediaya savaş açması bütün dünya mətbuatında müzakirə olunmaqdadır. Bəzi ekspertlər qeyd edir ki, Trampın mediaya qarşı bu davranışı digər ölkə liderləri üçün pis nümunəyə çevrilməkdədir. Əlbəttə ki, dünyanın ən demokratik ölkəsinin rəhbəri bu cür davranarsa, digər ölkə liderlərindən daha sərt reaksiyalar artıq gözlənilədir. Ekspertlər həmçinin qeyd edir ki, Tramp media savaşını dayandırmazsa, bu, ilk növbədə onun özünü "bitirəcək".

Bəs ABŞ prezidentinin mediaya qarşı savaşı Bakıdan necə görünür?

**Əməkdar jurnalist Qulu Məhərrəmli mövzu ilə bağlı "Yeni Müsavat"a danışdı:** "Ondan başlamaq lazımdır ki, mətbuat azadlığı, müstəqil media ABŞ-ın ən böyük dəyərlərindən biridir. ABŞ-ın bu cür qüdrətli, güclü dövlət olmasında təkcə iqtisadi deyil, həm də insan faktorunun önündə dayanan media azadlığı rol oynayır. Trampın mediaya yanaşması əvvəlcədən yanlışdır. Görünür ki, onun azad mediaya, jurnalistə qarşı bir kompleksi var. Onun davranışı burdan qaynaqlanır. Ümumiyyətlə, Trampın hərəkətlərini çox ciddi şəkildə təhlil etməyə ehtiyac yoxdur. Məsələn, onun İrkutsk bəyanatı, İranda baş verən aksiyalarla bağlı tələsik mövqe bildirməsi onu göstərir ki, Tramp özünü prezident kürsüsündə əyləşən rəsmi deyil, azad bir insan kimi hiss edir və vəzifənin ona gətirdiyi məhdudiyyətlərə uyğunlaşmaq istəmir. Bu baxımdan hesab edirəm ki, Trampın mediaya açdığı savaş münasibəti də keçici olacaq. Nə olursa olsun, prezidentlər gəldi-gedərdi, amma ABŞ-da söz, mətbuat azadlığı bir dəyər kimi qalır və onu yaşadır".

Qulu Məhərrəmli Trampın mediaya savaş açmasını mənasız davranış adlandırdı: "Trampın bu cür davranışlarını dəlisov, nizamlanmamış, mənasız hərəkətlər kimi baxıram. Bütün bunlar mətbuat azadlığını zədələyə bilər, lakin dəyər kimi yerindən tərpədə bilməz. Avtoritar sistemlərdə mətbuata qarşı savaş həmişə avtoritetin qələbəsi ilə bitə bilir, bunu tarix göstərir. Amma demokratik ölkələrdə media ilə savaş mütləq prezidentin məğlubiyyəti ilə nəticələnir. Ona görə də Trampın bu döyüşdə qalib gəlməsi mümkünsüzdür. Bu, Amerika mətbuat tarixinin qara səhifələrindən biridir".

**Avropa.info saytının rəhbəri Ruslan Bəşirli isə mövzuya belə şərh verdi:** "Ümumiyyətlə, Trampın prezident seçilməsindən sonra ABŞ siyasətində mühüm dəyişikliklər sezilməkdədir. Bu gün tam əminliklə söyləmək mümkündür ki, Trampın yəhudi siyasi xəttinin seçdiyi prezidentdir. Buna qarşı ABŞ-da bir də anqlo-sakson siyasi xətti mövcuddur. Adları çəkilən media quruluşları da anqlo-sakson siyasi xəttinin təsirində olan mətbuatdır. Bu media orqanları seçki öncəsində Trampa qarşı fəal mübarizə aparır, əsasən Hillari Klintonu dəstəkləyirdi.

Seçkilərdən sonra da bu media orqanları Trampa və onun siyasətinə qarşı yazılar dərc edir. Tramp məhz bu səbəbdən həmin media orqanlarına qarşı qəzəblidir. Hesab edirəm ki, Trampın bu addımları söz azadlığı, media azadlığına qarşı olan bir addım kimi dəyərləndirilməlidir. Avropa ölkələrinin bir çoxu, xüsusən də İngiltərə Trampın bu siyasətinə qarşıdır. Trampın mediaya qarşı təzyiqlərinə bu kontekstdən yanaşmaq lazımdır. Onun mediaya təzyiqlərinin nə ilə bitəcəyinə birmənalı şəkildə cavab verməkçətindir. Çünki Trampın xaricdən görünən mediaya təzyiqi, Qüdsü İsrailin paytaxtı kimi tanıması, PKK/PYD terrorçularını dəstəkləməsi, müsəlmanlara qarşı irqçi açıqlamaları ilə yanaşı, ölkə daxilində görünən tərəfləri də var. O, ölkə daxilində iqtisadi islahatlar, vergi islahatları həyata keçirir. Bu, onun ABŞ cəmiyyətində reytinqini artırır. Bu baxımdan deyə bilərəm ki, ABŞ siyasətinə hazırda qeyri-mütənasib bir fiqur rəhbərlik edir, amma onun etdiklərinin nə ilə bitəcəyi hələlik kimsəyə bəlli deyil, o cümlədən mediaya olan təzyiqləri".

❑ **Xalidə GƏRAY**



**2017-ci ildə istehlak məhsullarının və xidmətlərin qiymətləri 2016-cı ilə nisbətən 12,9 faiz artıb. Dövlət Statistika Komitəsindən "Yeni Müsavat"a verilən məlumata görə, ötən il ərzaq məhsullarının qiymətləri 16,4 faiz, qeyri-ərzaq mallarının qiymətləri 11,6 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 9,3 faiz bahalaşıb.**

# İnhisarçılar ərzaq məhsullarını yenə bahalaşdırır

## **Ekspert:** "Qiymətlərə bir neçə amil təsir göstərir"

Ötən ilin dekabr ayında noyabr ayına nisbətən istehlak məhsulları və xidmətlərin qiymətləri 0,5 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 1,0 faiz, qeyri-ərzaq mallarının qiymətləri 0,2 faiz bahalaşıb, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə sabit qalıb.

Dekabr ayında noyabr ayı ilə müqayisədə kolbasa məmulatlarının, balıq məhsullarının, süd məhsulları, pendir və yumurtanın, zeytun yağının, çay və qəhvənin, bananın, almanın, armudun, narın, qozun, fındığın, şabalıdın, xiyarın, pomidorun, sarımsağın, kartofun qiymətlərində bahalaşma, düyünün, unun, manna və qarabaşaq yarmasının, makaron məmulatlarının, mal, qoyun və toyuq ətinin, günəbaxan yağının, şəkər və şəkər tozunun, limonun, portağalın, naringinin, xurmanın, kələmin, göyərtinin, soğanın, çuğundurun, yerkökünün qiymətlərində isə ucuzlaşma müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Qeyd edək ki, Azərbaycanda kəskin qiymət artımları manatın devalvasiyalarından sonra sürətlənib. Bahalaşmanın əsas səbəbi kimi idxal məhsullarında dolların məzənnəsinin artımı ilə bağlı yaranan yüksəlmə göstərilib. Ötən ilin əvvəlindən isə manatın məzənnəsi sabitləşməyə başlayıb, ödən müddət ərzində isə hətta bir qədər möhkəmlənib. Lakin manatın məzənnəsinin sabitləşməsi qiymətlərdəki artımın qarşısını ala bilməyib.

**Bahalaşmanın davam etməsi hansı səbəblərdən irəli gəlir? Manatın sabitləşməsi qiymətlərə niyə təsir etmir? Suallara cavab verən iqtisadçı-ekspert Natiq Cəfərlinin dediyinə görə, son 3 ayda manatın dollar qarşısında məzənnəsi demək olar ki, tamamilə dəyişməz qalıb:** "Bu faktdır ki, xüsusilə son 8 ayda manatın məzənnəsində ciddi bir dəyişiklik baş vermir. Lakin başqa bir fakt da var ki, avronun məzənnəsi sürətlə artır. Ötən ilə nisbətən 17 faizlik artım var. Bu isə avrozonadan avro ilə alınıb gətirilən məhsulların qiymətində kəskin artımlara səbəb olur. Qeyd edim ki, idxalımızda avrozonanın payı yüksəkdir - İtaliya, Almaniya, Fransadan gətirilən məhsullar az deyil. Ona görə də Avropadan gətirilən məhsulların - əsasən dərman preparatlarının, uşaq qidalarının, avtomobillərin, avtomobil ehtiyat hissələrinin qiymətində bahalaşma baş verir".

**Ekspertin sözlərinə görə, bahalaşmanın davam etməsinin digər səbəbi vergi-gömrük rüsumlarının artmasıdır:** "Ötən il ərzində bir çox mal və məhsulların vergi və gömrük rüsumlarında dəyişikliklər oldu. Bəzilərində endirim oldu - ciddi müzakirələr və qınaqlardan sonra. Məsələn, kərə yağının idxal gömrük rüsumu 15 faizdən 5 faizə endirildi. Lakin ötən ilin yanvarında vergi dərəcələrində, daha sonra gömrük rüsumlarında artımlar edildi. Bütün bunlar dərhal mal və məhsulların qiymətinə oturur. Digər səbəblərdən biri budur ki, qaz və enerjinin limitdən artıq hissəsi üçün qiymətlər kəskin qaldırıldı. Qaz və elektrik enerjisindən çox istifadə edən müəssisə və obyektlər üçün bu ağır yükdür. Eyni zamanda ötən il A92 markalı benzinin qiymətində artım oldu. Bütün bunlar son nəticədə bahalaşmaya gətirib çıxaran amillərdir".

**N.Cəfərli qiymət bahalaşmasının ən əsas səbəblərindən biri kimi ölkədə inhisarlaşma səviyyəsinin yüksək olmasını qeyd edir:** "Bahalaşmanın fundamental səbəblərindən biri, əlbəttə, on illərdir Azərbaycanda geniş vüsət almış korrupsiya və inhisarçılıqdır. Bu amilin qiymət artımına təsiri yüksək səviyyədədir. Korrupsiyanın olması sahibkarların əlavə xərclərini artırır. İqtisadiyyatın qanunu da belədir ki, iş adamı rəsmi və ya qeyri-rəsmi ödədiyi bütün pulları satdığı, yaxud istehsal etdiyi məhsulun üzərinə əlavə edir. İnhisarçılıq isə bazarda oyunçuların az olmasına, onların öz aralarında qiymət sövdələşmələrinin rahat başa gəlməsinə səbəb olur. Bütün bunların nəticəsi olaraq, bu il də inflyasiyanın ikirəqəmli olması ehtimalını daha da gücləndirir".

**Xatırladaq ki, Azərbaycan hökuməti bu il ölkədə birrəqəmli inflyasiya səviyyəsinə nail olmağı hədəf götürüb. Müsahibimizin fikrincə, hökumət inzibati üsullarla ümumi inflyasiyanın ikirəqəmli olmasının qarşısını ala bilər:** "Lakin real inflyasiyanın, xüsusilə ərzaq məhsullarında birrəqəmli olması çox çətin məsələdir. Nəzərə alsaq ki, neftin qiymətinin yüksəlməsi fonunda büdcədən investisiya xərcləri də kəskin artırılıb və bu, istər-istəməz dövriyyəyə daha çox həcmdə manatın daxil olması deməkdir, onda inflyasiyanın yüksək olması daha real görünür. Hələ yanvar ayında maaş və təqaüdlərdə cüzi artım olacağı xəbəri təzə yayılıb, amma qiymətlər də başlayıb yüksəlməyə. Seçkiqabağı dövrdə daha ciddi əmək haqqı, pensiya artımı edilərsə, bu, qiymətlərin daha sürətlə bahalaşmasına gətirib çıxaracaq".

❑ **DÜNYA,**
❑ **"Yeni Müsavat"**

# Manat möhkəmlənməyə doğru "üzür"

## Ekspert deyir ki, milli valyutanın ucuzlaşma ehtimalı çox azdır, seçki ərəfəsi isə...

**Mərkəzi Bank bu il də "üzən məzənnə" siyasətinə davam edəcəyini açıqlasa da, əksər ekspertlər hazırkı məzənnə siyasətinin daha çox inzibati qaydada diqtə edildiyini hesab edirlər. Mərkəzi Bank (AMB) isə bəyan edib ki, milli valyutanın fundamental makroiqtisadi amillərdən irəli gəlməyən qısamüddətli dəyişkənliyinin qarşısının alınması məqsədilə məhdud sayda və həcmdə valyuta bazarına müdaxilə edilə bilər.**

**İqtisadçı ekspert Rəşad Həsənov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, dünyanın hər bir ölkəsində mərkəzi banklar valuta bazarlarında iştirak edir və əllərində olan alətlərdən istifadə edərək mümkün qədər valyuta bazarlarındaa makrosabitliyin təmin olunmasına çalışırlar: "Ancaq məsələ ondadır ki, valyuta maliyyə bazarlarında istənilən formada yaranmış çağırışlara edilən müdaxilələr qısamüddətli dövrdə müəyyən volatilliyin yaranmasına gətirib çıxarır. Maraqlıdır ki, Azərbaycanda son 6-7 ay ərzində mindəbir qəpik dəyişiklikləri belə baş vermir, biz hər hansı volatillik müşahidə etmirik. Normalda əgər manatın dəyəri "üzən məzənnə" rejimində formalaşırsa, biz gün ərzində açıqlanan rəqəmlərə, o cümlədən qlobal valyuta bazarlarında, enerji bazarında baş verən proseslərə reaksiyanı hiss etməliyik. Ancaq biz heç bir reaksiya hiss etmirik, çünki heç bir reaksiya yoxdur. Manat tam olaraq sabit məzənnə nümayiş etdirir ki, bu da "üzən məzənnə" rejimində mümkün deyil. Buna əsaslanaraq deyirik ki, bu gün Azərbaycanda üzən məzənnə rejimi yox, diktə məzənnəsi rejimi formalaşıb".

**R.Həsənov bu gün manatın möhkəmlənməsini şərtləndirən iqtisadi faktorları sadaladı:** "Nəzərə alsaq ki, dünya bazarında Azərbaycan neftinin qiyməti 70 dollar civarındadır, tədiyyə balansında əhəmiyyətli səviyyədə profisit yaranıb, xarici ticarət saldosu 6 milyard dollardan çoxdur, rezervlər artıb, belə bir şəraitdə manatın məzənnəsinin 10 faiz möhkəmlənməsi qaçılmaz olardı. Ancaq biz bazarlarda bu prosesi müşahidə etmirik. Həmçinin bazarlarda Mərkəzi Bankın iri alışlarını da görmürük. Belə bir şəraitdə gəldiyimiz qənaət o olur ki, əslində məzənnə hər hansı maliyyə alətlərindən çevik istifadə nəticəsində formalaşmır. Sadəcə, gün ərzində konkret olaraq diqtə olunmuş bir rəqəm əsasında formalaşır. Biz maliyyə alətlərindən istifadəni o qədər də çox görmürük. Düzdür, depozit hərracları vaxtaşırı olaraq keçirilir. Ancaq bu hərraclarda da bəzi hallarda tələb təklifi 4-5 dəfə üstələyir, tələbin həcmi təklifdən 600 milyon manat yuxarı idi. Bu 600 milyon manat bazarlara yönələrsə, müəyyən qədər məzənnə dəyişikliklərinə gətirib çıxartmalı idi. Mərkəzi Bank hələ də o fikri müdafiə etməyə çalışır ki, məzənnə "üzən valyuta" rejiminə uyğun şəkildə tələb və təklifə əsasən formalaşır. Ancaq biz bunu görə bilmirik. Heç kim Mərkəzi Bankın səlahiyyətlərini inkar etmir, səlahiyyətləri var, bazara müdaxilə etməlidir. Hətta bəzi hallarda Mərkəzi Bankın öhdəliyidir ki, makrosabitliyi qorusun. Ancaq makrosabitlik dedikdə söhbət ondan getmir ki, məzənnə 8 ay ərzində mindəbir qəpik dəyişməyəcək. Problem məhz bundan qaynaqlanır".

**İqtisadçı ekspert onu da vurğuladı ki, Mərkəzi Bankın manatın məzənnəsini bu şəkildə idarə etməsinin mənfi və müsbət təsirlərini birmənalı qiymətləndirmək çox çətindir:** "İndiki halda qeyri-neft subyektləri müəyyən qədər çalışırlar ki, sabit məzənnə olsun. Hökumət də bu məzənnə sabitliyini dəstəkləməklə müəyyən qədər iqtisadi akitivliyi təmin etməyə çalışır. Ancaq məsələyə makroiqtisadi baxımdan yanaşdıqda, manatın real məzənnəsinin tapılmadığı halda Azərbaycana xarici investisiyanın cəlb edilməsi imkanları zəifdir. Çünki bu istiqamətdə davam etdirilən siyasət hər zaman maliyyə bazarları üçün ciddi risk formalaşdırır. Bu isə təbii ki, xarici investorun diqqət mərkəzində olan məsələdir. Eyni zamanda onu da nəzərə almaq lazımdır ki, bu gün manatın məzənnəsinin formalaşmasında əsas amil neftin qiymətidir. Ölkə ixracatında neftin qiyməti 90 faizdir. Belə olan halda xarici bazarlarda baş verənlərə daxili valyuta bazarlarının reaksiyası da proqnozlaşdırıla bilən deyil. Mərkəzi Bank həm də məsələyə bu baxımdan yanaşır və neftin sabahkı qiymətini müəyyənləşdirməkdə çətinlik çəkir. Ona görə də Mərkəzi Bank müdafiə olunan mövqedə dayanmaq istəyir. Əvvəlki dövrlərdə olduğu kimi qəflətən pis vəziyyətlə qarşılaşmaq istəmir, bu zərərin mümkün qədər az olmasına çalışır".




**Mərkəzi Bankın bu il manatın məzənnəsini hansı səviyyədə saxlayacağına toxunan R.Həsənov bildirdi ki, bununla bağlı bir neçə faktor prosesə təsir göstərə bilər:** "Hazırda neftin qiyməti prizmasından məsələyə baxsaq görərik ki, OPEK və digər beynəlxalq təşkilatlar neftin qiymətinin bahalaşan istiqamətdə olacağını proqnozlaşdırırlar. Bu kontekstdən yanaşdıqda Azərbaycan manatının məzənnəsinin ucuzlaşmasını şərtləndirən hərc hansı bir ciddi təsirlər olmayacaq. Ola bilər ki, müəyyən dalğalar olsun, ancaq bunlar manatın məzənnəsini ucuzlaşdırmayacaq. Manatın bahalaşması istiqamətində təzyiqlər olacaq. Mərkəzi Bank isə sabit məzənnə siyasətini davam etdirir. 2018-ci ildə də AMB bu təzyiqlər qarşısında geri çəkilməyəcək və öz siyasətini davam etdirəcək. Bu bizim ən çox üstünlük verdiyimiz proqnozdur. Ancaq digər bir amil də bu ilin prezident seçkisi ili olmasıdır. Belə bir məqamda ola bilər ki, hökumət prosesin hansısa mərhələsində manatın məzənnəsini bir neçə faiz möhkəmləndirməyə çalışsın. Bu hal baş verərsə, manat müəyyən qədər bahalaşa bilər. Ucuzlaşma ehtimalı isə çox azdır. Bu ehtimal yalnız neftin qiymətinin bundan sonra 40 faizə qədər ucuzlaşması zamanı mümkündür ki, bu da qlobal neft proqnozlarında öz əksini tapmır".

❑ **Nərgiz LİFTİYEV,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 13 (68902) 19 yanvar 2018

# Xəstələnən siyasi rəqiblər və ya "səni görüm, tez sağalasan..."

## Müsəlman ölkələrində daha çox "keçmiş olsun" ziyarətləri və mesajları verilir, Qərb ölkələrində isə kompromatlar işə düşür

**Milli Strateji Düşüncə Mərkəzinin sədri, Müsavat Partiyasının sabiq sədri İsa Qəmbər yanvarın 18-də Mərkəzi Klinik Xəstəxanadan evə buraxılıb. Onun səhhəti yaxşıdır və müalicəsini ev şəraitində davam etdirəcək.**

Dünya təcrübəsində siyasətçilərin - istər müxalifətdə, istərsə iqtidarda olanların - xəstələnməsi hər zaman hadisə sayılıb. Bu ərəfədə onunla eyni cinahı bölüşənlərlə yanaşı, rəqiblərinin davranışı da diqqət çəkir. Çünki etiket qaydalarına əsasən, bu hadisə zamanı həm media, həm də şəxsi kanallar vasitəsilə "keçmiş olsun" mesajını ünvanlamaq ciddi şərt sayılır.

Məsələn, İ.Qəmbərin xəstəliyi fonunda müxalifət cəbhəsi ilə yanaşı, YAP düşərgəsindən də "keçmiş olsun" mesajları gəldi. **Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov** ilk gündən bildirdi ki, "Əgər İsa Qəmbərin xaricdə müalicəsinə ehtiyac yaranarsa, dövlət lazımi dəstək verəcək".

**Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, millət vəkili Aydın Mirzəzadə də İsa Qəmbərin tezliklə sağalaraq ailəsinə dönməsini arzu edib:** "Hər bir insan xəstələnə bilər. Siyasi mövqe siyasi mövqe olaraq qalır. Ancaq bununla belə, insanların problemləri olarkən siyasəti, iqtidar-müxalifət məsələlərini qabartmaq düzgün deyil. Kimliyindən asılı olmayaraq, hər bir insanın sağlam olması, özünün və ailəsinin çətinliklərlə üzləşməməsini arzulayıram".

### Putinin rəqibləri sevinir, Ərdoğan üçün isə Kılıçdaroğlu zəng edir

Türkiyə təcrübəsindən başlayaq. Qardaş ölkədə siyasətçinin xəstələnməsi ilə rəqiblərinin ona acil şəfalar diləməsi, "keçmiş olsun" diləklərini göndərməsi adi hala çevrilib. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan CHP sədri Kamal Kılıçdaroğlunun kartejinə hücumun olmasının ardından şəxsən partiya sədrinə zəng edib. Məlumata görə, prezident Kılıçdaroğlundan hadisənin təfərrüatlarını öyrənib, keçmiş olsun diləklərini bildirib.

**Eyni jesti 2017-ci ilin iyun ayında Kılıçdaroğlu da edib. O, Bolu səfəri zamanı jurnalistlərin suallarını cavablandırarkən aşağıdakıları deyib:** "Səhər saatlarında səhhətində bir narahatçılıq keçirən Ədalət və Qalxınma Partiyasının rəhbərinə də burdan, sizin vasitənizlə "keçmiş olsun" diləklərimi çatdırmaq istəyirəm".

Səhhətinin pis olması ilə bağlı tez-tez mətbuatda məlumatlar gedən siyasətçilərdən biri də Rusiya prezidenti Vladimir Putindir. Amma bu mövzuda daha çox xarici mətbuat yazır. Siyasətçilər, xüsusən də hakim partiyanın rəqibləri bu haqda danışmağı çox da tərcih etmirlər.

V. Putin isə səhhəti ilə bağlı yayılan söz-söhbətə hər zaman bu formada münasibət bildirib. "Dedi-qodusuz darıxdırıcı olur".

Amma bu il keçirilən prezident seçkilərində qatı rəqiblərinin əsas tələbi də onun sağlamlığı ilə bağlı məsələdə şəffaf olmasıdır. Hətta şou-biznes dünyasının yaxşı tanıdığı rəqibi Kseniya Sobçak müsahibələrindən birində onun səhhəti ilə bağlı cəmiyyətə geniş arayış verməsini tələb etmişdi.







### Buşun rəqibləri onun səhhəti ilə bağlı problemləri mediaya ötürüb

Tarix boyunca isə səhhəti müzakirə olunan siyasətçilərin sayı həddən artıq çoxdur. ABŞ prezidenti Voodrov Vilson 1919-cu ilin oktyabrında keçirdiyi iflicdən sonra prezidentliyin qalan 17 ayını fiziki məhdudiyyətli şəxs kimi keçirib. Onun səhhətinin yaxşı durumda olmadığını həkimlər əvvəldən də bildirmişdilər.

1955-ci ildə ABŞ prezidenti Dvight Eisenhoverin infarkt keçirdiyi xəbəri ictimaiyyətə açıqlansa da, belə başa düşmək olar ki, onun vəziyyətini əslində olduğundan daha yumşaq təqdim ediblər.

1991-ci ilin mayında prezident Corc Buşu ürək qulaqcıqların fibrilyasiyası, yəni aritmiyası tutmuşdu. Məqalədə deyilir ki, o zaman ən böyük narahatlıq 25-ci düzəlişə əsasən Dan Quayle-in prezident ola biləcəyindən idi. Amma Buş xəstəlikdən çox çevik dirçələ bilmişdi.

Amma bəziləri bu qənaətdədirlər ki, xəstəlik ondan əl çəkməmiş və 1992-ci ildə Bill Klintona məğlubiyyətinin səbəblərindən biri olmuşdu. Ata Buşun xəstəliyi bir də özünü Yaponiyadakı dövlət ziyafətində yediyini qaytarması ilə büruzə vermişdi.

Elə oğul Buşun başına iş gəlmişdi. 43-cü ABŞ prezidenti 2002-ci ildə Ağ Evdə televizora baxa-baxa yediyi pretzel çərəz peçenyesinin boğazında qalmasından boğulurmuş. Onunla bağlı bu informasiya isə rəqibləri tərəfindən mediaya sızdırıldığı üçün ciddi ajiotaj yaratmışdı.

### Uqo Çavesin əməliyyatını Qərb mətbuatı şişirtdi və...

Xərçəng xəstəliyindən əziyyət çəkən prezidentlər isə daha çox Cənubi Amerika ölkələrinin liderləri olub. Bir-birinin ardınca amansız xəstəliyə tutulan prezidentlər bunun səbəbini müxtəlif cür izah etməyə çalışırlar.

Kolumbiyanın prezidenti Xuan Manuel Santosun prostat vəzində olan xərçəngdən əziyyət çəkdiyi məlum olub. 61 yaşlı prezidentin məhz bu xəstəlikdən əməliyyat olunacağı deyilirdi.

Bu xəstəliyə tutulan Cənubi Amerika prezidentlərinin sayı 6-ya qədər olub. Venesuelanın mərhum prezidenti Uqo Çaves dörd dəfə xərçəngdən əməliyyat edilsə də, sağalmaz xəstəlik onun ölümünə səbəb oldu.

Braziliyanın keçmiş prezidentləri Luis İnasio Lula da Silva və Dilma Ruzef də şiş xəstəliyinin daşıyıcılarındandır. Argentina prezidenti Kristina Fernandez de Kirçner bu xəstəlikdən əməliyyat olunub. Paraqvay prezidenti Fernando Luqo 2010-cu ildə xərçəng olduğunu bilib və hazırda müalicə olunur.

Misirin devrilmiş diktator prezident Hüsnü Mübarəkin də müayinə zamanı xərçəng xəstəsi olduğu üzə çıxıb. Ona "V dərəcəli xərçəng" diaqnozu qoyub.

2013-cü ilin 6 martında Venesuela prezidenti Uqo Çaves onkoloji xəstəliyin fəsadlarından vəfat edib. Martın 5-də öncə Uqo Çavesin səhhətinin pisləşməsi barədə xəbər yayılıb, bundan sonra isə Venesuela hökumətinin təcili iclası keçirilib. İclasa Uqo Çavesin xələfi Maduro sədrlik edib. Uqo Çaves 2012-ci ilin dekabrın əvvəlində Kubada onkoloji xəstəliklə bağlı əməliyyat olunub. Xərçəng xəstəliyi onda 2011-ci ilin ortalarında aşkar edilib. Əməliyyatdan sonra 2 ay Havana xəstəxanasında müalicə kursu keçib, fevralın ortalarında isə qəfil Karakasdakı hərbi hospitala köçürülüb. 2011-ci ildə xərçəng xəstəliyindən əziyyət çəkdiyi müəyyənləşən Çaves 4 dəfə cərrahiyyə əməliyyatı keçirsə də, ölümdən qaça bilmədi.

Amma U.Çavesin xəstəlik xəbəri ilk gündən etibarən mediadan və ictimaiyyətdən gizlədilməyib. Onun müalicəsi ilə bağlı mediaya təfərrüatlı olmasa da, məlumatlar çatdırılıb. Müalicə dönəmində isə Qərb mətbuatında onun ölümü ilə bağlı dezinformasiyalar geniş yer tutub.

Amma heç kimə sirr deyil ki, "keçmiş olsun" diləyi, xəstəyə baş çəkmə, ona diqqət göstərmə Qərb dünyasında, eləcə də Qərb siyasətində o qədər də geniş yayılmış hal sayılmır. Çünki Qərbdə bu sayaq hallara daha soyuqqanlı yanaşılır və rəqiblər bir qayda olaraq hücuma keçməyə, bununla bağlı mümkün ola biləcək ssenariləri xalqın nəzərinə çatdırmağa çalışırlar. Yuxarıdakı nümunələrdən də göründüyü kimi, bu məqamda daha çox medianın gücündən istifadə edir və məlumatları tanınmış media orqanları vasitəsilə ictimaiyyətə sızdırırlar.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# Yol davaları



**Samir SARI**

**3-4 ay əvvəl bir yazımda qeyd etmişdim ki, azərbaycanlı sürücülərin 90 faizi laloçezia xəstəsidir. Bu sözü yadından çıxaranlar üçün, dübarə söyləyim ki, "laloçezia" pis söz deyil, "söyüb rahatlaşan" deməkdir.**

Srağagün Xızıdan gələn xəbər isə göstərir ki, sürücülərin bir xeyli hissəsi təkcə laloçezia xəstəsi deyillər, daha əsəbidirlər, söyməklə rahatlaşmırlar, maşınlardan düşüb əməlli-başlı tutaşırlar.

Arada bıçaqlaşanlar da olur. Tutaşarəkən bir-birinə əldən bir-iki dənə tutuzdurandan sonra hərəsi öz maşınına, oturacağın altında gizlətdikləri vintaçana qaçanlara da tez-tez rast gəlmək olar.

Deyim ki, mən özüm də yolda dalaşan sürücüləri çox görmüşəm. Belə davalar ya yol verməmək, ya da yüngülvari toqquşma, sürtüşmə hadisələri zamanı baş verir.

Yüngülvari toqquşma, sürtüşmə hadisələri, bütün sürücülər kimi, öz başıma da dəfələrlə gəlib. Gözəgörünməzə şükürlər olsun ki, bir dəfə də şillə-şapalaq hadisəsinə düşməmişəm. Hərçənd bir dəfə Sulutəpə tərəfdə mən piyadaya yol verərkən, bir sürücü avtomobilimi arxadan vurduqda, maşından kəskin şəkildə düşmüşdüm və qəza səbəbkarı olan sürücü sükanın arxasında qorxmuş, müəllimi tərəfindən döyüləcək şagirdin aldığı kimi müdafiə pozası almışdı. Düzü, onun bu durumuna görə xəcalət çəkdim, üzümə zor-bəla təbəssüm verərək, şok yaşayan sürücüyə dedim, canın sağ olsun, narahat olma. Sonra da bir-iki yüngülvari zarafata elədim, könlünü alıb yola saldım. Elə bir ziyan-filan da yox idi. Yəni beş-on manata görə sürücüylə tutaşıb, söyüşüb, türmələrə, xəstəxanalara, ən azı videolara düşmək nəyə lazımdır ki?

Bilirsiniz, bu saat hamı kameramandır. Hərənin əlində bir kinoçəkən telefon var. Kim harda bir az qəribə, maraqlı hadisə görürsə, dərhal telefonunu çıxarır, çəkməyə başlayır. Əlbəttə, bunu o niyyətlə edirlər ki, sonradan sosial şəbəkələrdə, Youtube sayıtnda paylaşsınlar. Belə adamlar üçün sürücülərin davası ideal bir çəkiliş meydançasıdır, ballandıra-ballandıra çəkirlər. İki adam bir-birini qırır, araya girib aralaşdıran, onları bıçağa, vintaçana cummaqdan çəkindirən yoxdur, hamı çəkilişdədir. Hətta öz təşəbbüsü ilə haraycılıq edib faciənin qabağını almaq istəyən ağsaqqallara acıqları da tutur: "Bu ağsaqqal da gəlib gül kimi temanın içinə zibil qoydu də. Əla dalaşırdılar. Deyən gərək, ağsaqqal adamsan, cəhənnəm ol get o tərəfə də. BMT-nin sülhməramlısı çıxmısan?"

Belə işlər var. Amma gərək nə çəkiliş aparanlara, nə də özgə davasına baxıb kayf tutanlara məhəl qoymayasan, imkan varsa, davanın qabağını startdaca alasan. 5-6 il əvvəl bir zabitəli adamın elə bir şey elədiyini görmüşəm. Tbilisi prospektində, Nəqliyyat Nazirliyinin yaxınlığındakı dairədə aləm bir-birinə qarışmışdı, sürücülər qırmızı işıq yananda keçir, yaşılda dururdular. Böyrümdə sırf "yol mənimdir, sən niyə keçirsən" motivli bir söyüşmə oldu. İki ortabab maşının sürücüsü mübahisə edirdi. Biri o birinə "çaqqal", o biri də bu birinə "kazyol" dedi. "Kazyol" adlandırılan şəxs kəskin şəkildə maşınından çıxıb düşməninin üstünə gedəndə, rəislərə oxşayan bazburutlu kişi əlini maşınının pəncərəsindən çıxarıb dedi, a kişi, hara gedirsən, gərək zibilə düşəsənmi, sür get işinin dalınca dəə. Təhqir olunan 45-50 yaşlı adam idi, eyni kəskinliklə qayıdıb oturdu maşınına, söyən adama "kazyol özünsən" dedi və artıq açılmış yolla sürüb getdi.

Bu cür hadisələr hər gün hamının başına gəlir. Heç kəs unutmasın ki, istənilən gün onun avtomobilini arxadan vura, böyürdən sürtə bilərlər. Özü də hər dəqiqə. Ona görə də təhlükəsizlik kəmərini qurşayıb sükan arxasına oturan adam özünə təlqin etməlidir ki, hərgah elə bir hadisə olsa, əsəblərini cilovlasın, düşüb adamı təpiyin, şillənin altına salmaq istəməsin - xüsusilə də günah özündədirsə.

Elə də olur. Bir də görürsən, gəlib avtoşluq edib, qəza şəraiti yaradıb, camaatın maşınını əzdiyi bəs deyil, hələ çəkinib-dartınır ki, məni buraxın, o ....-ın ağzını cıracam.

Bax, hazırda məhkəməsi gedən general oğlu da elə etmişdi, bir avtobus sürücüsünü döyüb xəstəxanalıq etmiş, media ulduzuna çevirmişdi. İndi adam avtobusunun sükanı arxasındadır, bu isə məhkəmədə bəraət istəyir. Amma o vaxt yanındakılar ona, "boş ver, sür gedək işimizin dalınca" desəydilər, indi hamısı sükan arxasında olardılar.

Çalışın həmişə sükan arxasında olun, mənzil başına çatmamış, yarı yolda düşməyin.


Azadxan Xanməmmədov

# İş adamına 3 il həbs cəzası verildi

## Mühafizəçilərinə də hökm oxundu

**Bakıda mağaza işçiləri ilə mühafizə xidmətinin əməkdaşları arasında baş vermiş kütləvi davaya görə açılan cinayət işi üzrə məhkəmə iclası davam edib. Musavat.com xəbər verir ki, Binəqədi Rayon Məhkəməsində xuliqanlıqda təqsirləndirilən iş adamı Azadxan Xanməmmədov və "Riyad" Mühafizə Xidmətinin əməkdaşları hakim qarşısına çıxarılıb. Hakim Rəşad Əliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Hökmə əsasən iş adamı Azadxan Xanməmmədov 3 il azadlıqdan məhrum edilib.

Digər təqsirləndirilənlər E.İsgəndərov 4 il, S.Məhərrəmovla M.Qurbanovun hər biri 2 müddətinə azadlıqdan məhrum edilib. Məhkəmə digər şəxslərə isə 2 il islah işlərinə məhkum edib. Onların cəzası şərti hesab edilib və həbs edilməyiblər.

Hadisə bu il iyunun 8-də baş verib. "Riyad" Mühafizə Xidmətinin bir neçə əməkdaşı ilə Binəqədi rayonu, Mir Cəlal küçəsi 1d ünvanında yerləşən "Safastore" mağazasının işçiləri arasında kütləvi dava baş verib. Nəticədə mühafizə xidmətinin əməkdaşları mağaza işçilərini döyüb. Bunu əks etdirən videogörüntü də var. Hadisəyə səbəb bir müddət əvvəl sahibkar Azadxan Xanməmmədovun sözügedən mağazanı 1.5 milyon manata əvvəlki sahibinə satması olub. Lakin bu günədək sənədləri rəsmiləşdirməyib. Əvvəlki sahibi isə pulu geri qaytarmadan mağazanın boşaldılmasını və geri təhvil verilməsini tələb edib.

Hadisə ilə bağlı Daxili İşlər Nazirliyinin yaydığı məlumatda bildirilir ki, faktla bağlı Binəqədi Rayon Polis İdarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin 221.2.1-ci (xuliqanlıq, bir qrup şəxs tərəfindən törədildikdə) və 221.2.2-ci (xuliqanlıq, ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən və ya ictimai qaydanın pozulmasının qarşısını alan hakimiyyət nümayəndəsinə və ya digər şəxsə müqavimət göstərməklə törədildikdə) maddələri ilə cinayət işi başlanıb.

Hadisə ilə bağlı 13 nəfər - Azadxan Xanməmmədov, Emin İsgəndərov, Savalan Məhərrəmov, Məzahir Qurbanov, Əvəz Ağayev, Yadigar Əliyev, Ramin Hüseynov, Murad Məmmədov, Rafiq Vəliyev, Elvir Vəliyev və Təbriz Musayev saxlanılaraq istintaqa cəlb olunublar. Daha sonra A.Xanməmmədov, E.İsgəndərov, S.Məhərrəmov və M.Qurbanovun barəsində həbs-qətimkan tədbiri seçilib. Digər şəxslərin barəsində isə polisin nəzarəti altında qətimkan tədbiri seçilməsi barədə qərar çıxarılıb.

❑ **İ.MURADOV,**
**"Yeni Müsavat"**

# Bakıda külək, rayonlarda qar

**Bakıda və Abşeron yarımadasında yanvarın 19-da hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, gecəyə doğru bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə zəif duman olacaq. Arabir güclənən cənub-qərb küləyi əsəcək, axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturunun Abşeron yarımadasında gecə 1-3, gündüz 7-12, Bakıda gecə 1-3, gündüz 9-11 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 754 mm civə sütunundan 758 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında yanvarın 19-da hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 4-9, gündüz 0-9 dərəcə şaxta olacağı gözlənilir.

Yanvarın 19-u axşamdan 20-si axşamadək bəzi rayonlarda arabir güclənən qərb küləyinin əsəcəyi, hava şəraitinin yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı, şimal və şərq rayonlarında intensiv olacağı gözlənilir.

# Hotel otağı və şantaj... - həbsdəki baş redaktorun məhkəməsi davam edir

## Zərərçəkmiş: "Qəzetində hoteli əxlaqsızlıq yuvası kimi təqdim edirdi, 3 min manat verdim ki..."

**Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) əməkdaşları tərəfindən həbs edilən və reket fəaliyyətində ittiham olunan "Gündəlik Bakı" qəzetinin baş redaktoru Habil Vəliyevin cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib.**

Musavat.com xəbər verir ki, işə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Fikrət Qəribovun sədrliyi ilə baxılır. Məhkəmədə zərərçəkmişlərdən Rasim Bağırov ifadə verib.

O, istintaqdakı ifadəsini təsdiqlədiyini bildirib və videogörüntülərlə şantaj edilərək 7300 manat pulunun alındığını deyib. R.Bağırov pulları hissə-hissə Habil Vəliyevə verdiyinu, 3 dəfə özü ilə görüşdüyünü söyləyib. O qeyd edib ki, dəymiş zərər ödənilib və heç bir şikayəti yoxdur.

**Digər zərərçəkmiş Fuad Məmmədov da ifadəsində bildirib ki, Habil Vəliyev onun barəsində qəzetdə yazıb və şantaj edib.** "Barəmdə rüsvayedici, əxlaqsız yazılar yazmışdı. 2 min manat pulu Surxay Əliyevə verdim ki, Habilə çatdırsın"- deyən zərərçəkmiş Habil Vəliyevlə barışıq əldə etdiyini bildirib.

**Zərərçəkmişlərdən Xəyyam Həsənov da ifadə verib və o da şikayətçi olmadığını söyləyib. O qeyd edib ki, sahibi olduğu obyektlərlə bağlı Habil Vəliyev tərəfindən qəzetdə yazılar yazılıb. X.Həsənov bu yazıların qarşısını almaq üçün H.Vəliyevə başqa bir şəxs vasitəsilə 2 min manat göndərib.**

"Habil Vəliyevin üzünü görməmişəm, nə də danışmamışam. Pulu göndərəndən sonra yazılar dayandı. İstintaq dövründə Habil Vəliyevin bacısı oğlu dəymiş zərəri ödəyib. Heç bir şikayətim, tələbim yoxdur. Barışıq əldə etmişik. Allah qapısını açsın" - deyə, zərərçəkmiş söyləyib.

**Prosesdə Nofel Musayev zərərçəkmiş kimi ifadəsində bildirib ki, hotel işlədib. Habil Vəliyev onu şantaj edərək 3 min manat alıb.** "Qəzetində hoteli əxlaqsızlıq yuvası kimi təqdim edirdi. Danışdım, yazını çıxarmasını istədim. 3 min manat verdim. Tutulandan sonra pulum ödənildi. Şikayətim və tələbim yoxdur"- deyə, zərərçəkmiş əlavə edib.

Qeyd edək ki, H.Vəliyev Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyat zamanı tutulub.


Habil Vəliyev

DTX-nin İctimaiyyətlə əlaqələr şöbəsinin yaydığı məlumata görə, qabaqcadan əlbir olan bir qrup şəxsin gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə qadınları digər şəxslərlə görüşdürüb münasibətlərinin gizli videoçəkilişlərini aparması, onları şantaj etməsi, habelə ayrı-ayrı şəxslər barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mütəmadi olaraq mətbu orqanlarda dərc etdirib bu fəaliyyətin dayandırılması müqabilində vətəndaşlardan külli miqdarda pul tələb edilməsi və alınması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplanılması barədə daxil olmuş müraciətlər Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılarkən Azərbaycan Respublikası ərazisində "reket" nəşrlər yaradıb, bu nəşrlərin jurnalistləri adı altında fəaliyyət göstərən bir qrup şəxs və onlarla şəbəkə halında əlbir olan digər şəxslərdən ibarət cinayətkar dəstənin silsilə cinayət əməlləri ifşa edilib, qanunsuz fəaliyyətlərinin qarşısı alınıb.

❑ **İlkin MURADOV**
**"Yeni Müsavat"**

# Bakteriya tapılan uşaq qidaları Bakı mağazalarında

## Qida Təhlükəsizliyi Agentliyi ölkəyə "Lactalis Group"a məxsus hansı çeşiddə və sayda qida məhsullarının idxal olması ilə bağlı araşdırmalara başlayıb

**Beynəlxalq mediada yayılan xəbərlərə əsasən, dünyada üçüncü süd məhsulları istehsalçısı olan Fransanın süd konserni "Lactalis Group"un Kraon zavodunda istehsal olunmuş bütün quru süd və əlaqəli süd məmulatları geri götürüləcək. Bu qərar yanvarın 12-də Fransanın iqtisadiyyat naziri Bruno Le Mer və konsernin baş direktoru Emmanuel Benye arasında danışıqlardan sonra verilib.**

Qida Təhlükəsizliyi Agentliyindən lent.az-a verilən məlumata görə, "Lactalis Group" Beynəlxalq Fransa şirkətinin Azərbaycandakı təmsilçisi 2011-ci ildən fəaliyyətdə olan "Lactalis Caspi" MMC şirkətidir.

Qida Təhlükəsizliyi Agentliyi yaranmış vəziyyətlə əlaqədar Dövlət Gömrük Komitəsi, Səhiyyə Nazirliyi Respublika Sanitariya-Karantin Müfəttişliyi və Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti ilə birlikdə ölkəyə "Lactalis Group"a məxsus hansı çeşiddə və sayda qida məhsullarının idxal olması ilə bağlı araşdırmalara başlayıb: "Səhiyyə Nazirliyi Respublika Sanitariya-Karantin Müfəttişliyindən Qida Təhlükəsizliyi Agentliyinə verilən məlumata görə, müvafiq quruma "Lactalis" nişanlı uşaq qidalarının dövlət gigiyena qeydiyyatına alınması ilə əlaqədar hər hansı bir müraciət olmayıb. Dövlət Baytarlıq Nəzarəti Xidmətindən quruma verilən məlumata görə, 2017-ci il ərzində adıçəkilən şirkətin "Picot", "Milumel" və "Celia" uşaq qidaları və digər süd məhsulları ölkəmizə idxal edilməyib, bu şirkətə məxsus başqa nişanlı süd məhsulları idxal edilib ki, onlardan da götürülən nümunələrin qida üçün yararlı olduğu müəyyən edilib.




Bundan əlavə, "Lactalis Group"un Azərbaycandakı nümayəndəliyi "Lactalis Caspi" MMC-nin təmsilçilərinin Qida Təhlükəsizliyi Agentliyinə verdiyi məlumata görə, "Celia" nişanlı qida məhsulları əvvəlki illərdə ölkəyə idxal edilib, lakin 2013-cü ildən etibarən bu məhsulun idxalı dayandırılıb. Hazırda beynəlxalq şirkətə məxsus digər süd məhsulları idxal edilir".

Agentliyin məlumatında qeyd edilir ki, aparılmış araşdırmaların nəticəsi olaraq beynəlxalq mətbuatda salmonella bakteriyasının tapıldığı güman edilən və satışdan götürülən "Lactalis Group"a məxsus "Picot", "Milumel" və "Celia" nişanlı uşaq qidaları və digər süd məhsullarının ölkəyə idxal edilmədiyi, bu səbəbdən də narahatlığa əsas olmadığı müəyyən edilib. İstehlakçıların satış nöqtələri, ticarət obyektlərində adıçəkilən qida məhsullarına rast gəldikləri halda Qida Təhlükəsizliyi Agentliyinin (012) 565-12-72 və ya (012) 565-12-82 nömrələrinə məlumat verməleri xahiş olunur.




Cümə söhbətləri

**Bismilləhir-Rahmənir-Rahim! Ötən bəhslərimizdə biz o mövzulara toxunduq ki, insan bir fərd olaraq, toplum olaraq nələri etməli və nələri etməməlidir ki, öz insanlığını qoruyub saxlaya bilsin və inkişaf etdirə bilsin. Və bu əlaqədə qeyd olundu ki, zəruri mövzulardan biri - şükür mədəniyyətinə malik olmaqdır. Şükür bəhsindən aydın oldu ki, İslam məntiqində şükür - Allahın verdiyi nemətləri o cür və o formada sərf etməkdir ki, necə Uca Yaradan müəyyən edib. Yəni, nemətverən nemətin necə sərf olunmasını istəyir və insan elə tətbiq edirsə - şükür etmiş olur. İnsan ona verilən görmək, eşitmək, düşünmək, sevmək, danışmaq və digər nemətlərdən elə istifadə etməlidir ki, necə Allah Təala məsləhət bilir və doğru sayır. Əks təqdirdə, əgər insan neməti doğru-dürüst xərcləmirsə - naşükürlərdən olur.**

# Tanımanı həll etməmiş, "nə etməli" mövzusuna daxil olan dünya

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## Şükürlülük ruhiyyəsi və tövbə mədəniyyəti

Şükür mədəniyyətinə sahib olmaqdan əlavə, digər mühüm mövzu - tövbə mədəniyyətinə sahib olmaqdır. Əgər tövbə insan həyatının zəruri atributu olmasa, saatının, gününün, ayının, ilinin ayrılmaz hissəsi olmasa - əlbəttə ki, söhbət həqiqi tövbədən, həqiqi mənada özünəqayıdışdan gedir, özünü təzədən həyata qaytarmaqdan gedir - insan kamillik durumuna yetişə bilməyəcək.

İnsan həyatı boyunda səhvlərə, xətalara, peşmançılıq gətirən əməllərə yol verir. Ən azı - ona verilən nemətlərdən axıradək dürüst faydalanmır. Ən minimum, buna görə insan Rəbbi qarşısında xətalara yol vermiş olur. Əslində ciddi naqislikdir bu. Və özünə qayıdış edən insan, tövbə mədəniyyətinə yiyələnmiş olur. Bu məsələ istər fərdin həyatında doğrudur, istər toplumun həyatında. Olmasa tövbə mədəniyyəti, tövbə ruhiyyəsi - heç bir mənəvi zirvəni fəth etmək alınmayacaq.

Uşaq tərbiyəsindən, təlim-tərbiyədən, toplumun həyatından, iqtisadi məsələlərdən tutmuş, həyatın bütün səhnələrində tətbiq olunmalı mövzudur bu. Mədəni həyatda, iqtisadi, ictimai və bütün digər sahələrdə aşılanmalı olan məsələdəndir tövbə etmək ədəbi. Şükürlülük ruhiyyəsi ilə yanaşı, tövbə mədəniyyəti də geniş təbliğ olunmalı dəyərlərdəndir.

## Tanımaqdan - "nə etməli"yə

Digər mühüm keyfiyyət - tanıma və mərifətlə bağlıdır. Tanıma olmadan əməl yoxdur, etmə yoxdur. Əgər kimsə iddia edir ki, iradəvi və əqlani seçimli həyat yaşayır və bu şüurlu həyatın əsasında tanıma yoxdursa - yanlışlıq edir. Tanıma olmayan yerdə seçimli həyat yoxdur. Tanıma, mərifət, agahlıq olmayan yerdə əslində seçim imkanı yoxdur.

Dünya bu gün iradəvilik, seçimlilik, şüurluluq axtarışındadır. Bugünkü dünya öz fundamental tanıma məsələlərini həll etməmiş, "nə etməli" mövzusuna daxil olub. Nə olub nəticədə? Fraqmental olaraq İnə etməli»lər çıxarılıb ortalığa, amma tanımasız "nə etməli"lərdir bu. Məsələn, iqtisadi sistemdə bir sıra qəbul olunmuş "nə etməli"lər tətbiq olunur ki, zahirən heç bir şəkk-şübhə doğurmur. Amma son dövrün praktikası göstərir ki, öncə professionallığında şəkk-şübhə olmayan fərdlərin başçılığı altında böyük-böyük layihələr süquta uğrayır, proseslər idarəolunmaz məcraya yönəlir.

Artıq iqtisadi, ictimai nəzər verməkdə də problemlər yaranıb. Hələ söhbət, sırf ümumi qəbul olunmuş işlərdən gedir. Hətta qəbul edilən standartlardan və çərçivələrdən irəli gələrək müzakirə olunan məsələlərdə belə çətinliklər var. Bu "nə etməli"lər insanın qeyri-maddi aləmində nə kimi təsirlər qoyur - onunla hələ işi yoxdur. Amma hətta maddi işlərdə necə təsirlər qoyur - göz qabağındadır.

Dünyada bir sloqanlıq, şüarçılıq praktikası ki, var idi son maliyyə böhranınadək - zahirən yenilməz və möhkəm təqdim olunurdu. Amma nə müəyyən olundu? Əvvəli bilinmir, son bilinmir, mahiyyət bilinmir - amma addımlar atılır. Sonu nə olacaq - heç bir şey. Xaos və nəzmsizlik.

## Hər şeyin dəyəri tanımaqdan keçir

Hətta maddi kateqoriyalarda necə bir vəziyyətlər yarana bilir. Mənəvi məsələlərdən heç danışılmır da. Yəni tanıma olmayanda, "nə etməli" elə belə olur. İnsan nəyisə tanımasa, orada nə edəcəyi həqiqətdə bilinməyəcək. Fərd tanımağı bacarmalıdır. Toplum - tanıyan toplum olmalıdır. Əgər fərd və toplum tanıyan olmasa, bunların içində nuraniyyət olmayacaq.

Tanıma - zəruri məsələlərdən biridir. Tanıma, mərifət, bilgi, anlama - insanın irəliyə hərəkəti üçün ən zəruri cəhətlərindəndir. Bunun əksi - cahillikdir, nadanlıqdır. Toplum tanımalıdır, tanımaq xüsusiyyətinə malik olmalıdır. Tanıma ilə fərd və toplum bilir ki, dəyər nədir və dəyərsizlik nədədir. Tanıyaraq insan müəyyən edə bilər ki, özü kimdir, Rəbbi kimdir, varlıq aləmi nələrdən ibarətdir. Nələri etməli, nələri etməməlidir. Tanımayan olsa insan, necə yaşamalı olduğunu bilməyəcək. Öz vücudi suallarının cavablarını bilməyəcək. Qarşısını çıxan irili-xırdalı sualların cavablandırılmasının nələrdən ibarət olduğundan bixəbər olacaq. Bilməyəcək ki, nələr nə vaxt həll olunur. Ruzisi nə vaxt bölünür, müqəddəratı nə vaxt müəyyən edilir.

Mən kiməm? Nə üçünəm? Ətrafdakılarım kimdir? Varlıq aləmində nələr var? Mənə nələr faydalıdır, nələr ziyanlı? Nələrdən çəkinməliyəm, nələrə meyil etməliyəm? Bu və bir çox digər suallara cavab tapmaq üçün insan gərək tanısın, mərifətə malik olsun.

Hər şeyin dəyəri tanımaqdan keçir. Hər şey bu məsələyə bağlıdır. Bizim həyatımızın mühüm nöqtələri məhz tanımaya bağlıdır. Şükür etsək - nemətlərdən düzgün istifadə edəcəyik. Tövbə etsək - müalicə olunacağıq. Tanımaq və mərifət məsələlərinə yiyələnsək - nadanlıqdan və cahillikdən qurtulacağıq. Ümumiyyətlə, tanımadan insan necə əməl edə bilər ki?! Tanımadan nəyin hansı dəyərə malik olmasını, deməli nəyin dəyərli, nəyinsə mənasız olmasını nədən bilə bilərik?

## "Mənə ayıq göz nəsib et!"

İslam inancı tanımanın da dərəcələrini, səviyyələrini təqdim edir. Ən mühüm, ən önəmli dərəcə - gerçək tanımadır. İslam terminologiyasında buna bəsirət deyilir. Bir var insan nəyisə zahiri tanıyır, bir də var həqiqi tanımaqdan söhbət gediir. Tanımada dinimizin müəyyən etdiyi ən əsas meyar odur ki, insan tanımada o qədər yüksəlsin ki, məsələlərlə tək qiyabı tanışlığı olmasın, mütməin, arxayın bir tanışlığı olsun.

Əslində həqiqi mərifət - elə bəsirətdir. İslamın həqiqi mərifətə - yəni, bəsirətə çağırışı var. Heç bir kitab Qurani-Kərim qədər gerçəklik haqqında təəqqülə, elmə, şüura, təfəkkürə dəvət etməyib. Quranın 1/6 hissəsi mərifət, tanımaq haqqındadır. Ayələrin bu qədər hissəsi agahlığa çağırır insanı.

O qədər mühümdür ki, bu mövzu, əziz İslam Peyğəmbəri (s) davamlı olaraq bu duanı oxuyardı: **"Allahım! Mənə ayıq bir göz nəsib et ki, bütün varlıqları necə ki var, elə görüm".**

Əziz Rəsuli-Əkrəm (s) - gerçəkçidir. O Həzrət (s) realizmin həqiqi mənada təqdimatçısıdır. O, gerçəkliyi tanımaq istəyini, hər nə həqiqətdə necədir - o cür görmək istəyini iqrar edir və ümmətini bu yanaşmaya dəvət edir. Peyğəmbərimiz (s) varlığı necə görünür yox, necə göstərirlər yox, məhz həqiqətdə necədir - bu cür görməyin dəyərini bizlərə öyrədir.

O cür olmasa nə olar? İnsan əgər özünə və varlıq aləminə tanıması, mərifəti, bəsirəti olmasa, əməllərində zülm edəcək. Bütlə Rəbbin yerini səhv salacaq. Batili haqqın yerində görəcək. Seçimlərində hər şeyi qarışdıracaq.

Bir maraqlı ürfani dastan var tanımaqla, bəsirətlə bağlı. İbrət götürmək baxımından əhəmiyyəti çox böyükdür. Bir nəfər qoca kişi hər gecə qaranlıqda tövləyə gedər və inəyinə su və yonca aparармış. Və yemini verəndə, inəyini tumarlayarmış. Bir gün ac bir şir tövləyə girir və inəyi yeyir. Qoca kişi isə həmişəki kimi, qaranlıqda tövləyə daxil olur və su və yoncanı heyvanın qarşısına qoyur, onu tumarlayır. Bəsirəti olmadığından, görmədiyindən, fərqinə varmır ki, bu heyvan o heyvan deyil. Onun yemi yonca deyil, o, tumarlanası heyvan deyil. Nəticədə özü bu aslana yem olur - mərifəti, tanıması olmaması səbəbindən. O qaranlıq mane olmuşdu kişinin görməsinə və inəyi şirdən ayırmasına. Tanımamaq səbəb olmuşdu onun özünün də yem olmasına.

## "IDüşər-düşməzi olar"

Bu dastandan əxz etdiyimiz əsas mətləb odur ki, qaranlıq, elmsizlik, agah olmamaqlıq səhihi qeyri-səhihdən ayırmağa qoymur. Çox rast gəlinir insanın həyatında belə şeylərə. Simvolik qaranlıqda, elmsizliyin qaranlığında insan öyrəşdiyi, vərdiş etdiyi şeylərlə hərəkət edir və nəticədə əməllər çox yanlış olur. Həmin qoca şiri inəkdən ayıra bilmədiyi kimi, mərifət işığının məsələləri işıqlandırmasından məhrum olan insan da doğrunu yanlışdan ayıra bilməz.

Nəinki fərd, bütöv toplumlar özlərini zillətə salır mərifətsizliyin, tanımamağın nəticəsində. Həzrət Əlini (ə) lənətlik Müaviyədən sonadək ayıra bilməyib ümmətin bir hissəsi. Həzrət Fatimeyi-Zəhranı (s.ə) Mədinədə qərib qoyur, İmam Həsəni (ə) Mədaində, İmam Hüseyni (ə) Kərbəlada tənha qoyur müsəlmanların çoxu - tanımamaq, mərifətsizlik ucbatından.

İnsan haqq axtaran ola bilər, amma tanıyan olmasa, əks iş görər. O yerə çatar iş ki, insanlar Allah Elçilərinə (ə) qarşı çıxarlar. Qurani-Kərim bu baxımdan bizə çox nümunə verir. Misal üçün, "Yasin" surəsinin 18-ci ayəsində görürük ki, bir camaatdan bəhs edilir ki, 3 peyğəmbər (s) barəsində mərifətsizlik göstərirlər. O qədər cahil olurlar ki, onların haqqa dəvət, haqqı təbliğ işinə mane olurlar, bu işi dayandırmağı tələb edirlər. Təfsirdən bəlli olur ki, Əntikiyə adlanan bu yerin camaatı 3 peyğəmbərə (ə) təbliğ etməyə mane olur. Onların qarşısında durur və **"Biz sizi yaşayışımız üçün nəsh bildik və əgər dediklərinizdən, təbliğ və söhbətinizdən əl çəkməsəniz, sizi daş-qalaq edərik və ağrılı əzab verərik (bəzi təfsirlərdə bu əzab, diri-diri yandırmaq kimi təqdim edilir)» deyə hədə-qorxu gəlirlər. Cahilliyin dərəcəsindən, bu camaat İlahi həqiqətlər qarşısında** "düşər-düşməz" məfkurəsi ilə hərəkət edirlər. Bədbəxtliyə bax ki, nicat üçün gələn peyğəmbərləri (ə) öz yaşayışları üçün təhlükə kimi bilirlər. Bunlar peyğəmbər tanımırlar. Nəsh olmasını, düşər-düşməzi ehtimal edərək, öz miskin yaşayışlarını "qorumaq" əzmi ilə, özlərini həqiqi xoşbəxtlikdən məhrum edirlər.

## Haqqa mane olanlar

Və bu, istisna deyil. Sədri-İslam dövründə - İslamın ilkin mərhələsində Həzrət Peyğəmbərin (s) qarşısında dayanırdılar və bu kimi sözlər deyirdilər ki, təbliğatını, haqqa dəvəti dayandırsın. Hədələr gəlirdilər, zülm edirdilər Rəsuli-Əkrəmə (s).

Günümüzdə də belə hallar olur. Birisi namaza başlayır. Birdən maşını qəzaya düşür, ətrafındakılar deyirlər ki, "bizə namaz düşmədi". Yaxud kimsə ehsan verir, problemi çıxır birdən, belə qənaətə gəlir ki, "bizə İmam (ə) ehsanı düşmədi". Cahilliyə, xurafata, nadanlığa bax! Gözəl əməllər, vacib işlər nə zamandan "düşər-düşməz" kimi xurafatçı mülahizələr əsasında müəyyənləşdirilib?! Bu hallar - insanların mərifətinin aşağı səviyyədə olmasına dəlalət edən ciddi göstəricilərdəndir.

Cahillər o şeyləri ki, onlara faydalıdır - başa düşməzlər. Rədd edərlər, narahatlıq keçirərlər. Haqqa dəvət edən Rəsula (s) hər vəchlə mane olmaq istəyərlər. Allahın rəhmət olaraq, xilas olaraq göndərdiyi peyğəmbərləri (ə) düşməmzliyin səbəbkarı bilərlər.

Əziz Peyğəmbərimizi (s) nə qədər incitmişlər! Müşriklər mərhələli surətdə ona qarşı şər və gözdən salmaq işi aparmışlar. Bir mərhələdə istədilər camaatı inandırsınlar ki, Rəsuli-Əkrəmin (s) nəuzubillah, ağlı özündə deyil. Bu barədə Qurani-Kərimin "Qələm" surəsinin 51-ci ayəsində nəql olunur. Sonrakı mərhələdə "yalançıdır" deyə böhtanlamaq planına əl atdılar. Sonra qərara gəldilər ki, desinlər ki, nəuzubillah, sehrkardır və müqəddəs Quran da o Həzrətin (s) sehridir.

Bu gündə də haqqı demək, haqqı çatdırmaq çox çətindir. İndi daş-qalaq etməsələr, odda diri-diri yandırmasalar da, mənəvi təzyiqlər, psixoloji işgəncələr, məhrumiyyətlər, cəzalar öz yerindədir. Qərəzli ünsürlər bir yana, görürsən kütlə də haqq deyəni bəyənmir, "bunun dedikləri bizə düşmür" psixologiyası ilə hərəkət edir, "siz bizə zərər verənsiz" deyə damğalayırlar. Hər belə işin də bazasında tanımamaq, elmsizlik durur.

## "Kim nəfsini tanıdısa, onunla cihada qalxdı..."

Təbərrük üçün tanımaqla bağlı bir neçə hədisə müraciət edək. Rəsuli-Əkrəm (s) buyurub: "Sizlərin ən imanlınız - ən çox tanıyanlarınızdır".

Kim daha çox tanıyacaq, daha çox imanlı olacaq. Nə malla, nə pulla, nə qohum-əqrəba ilə imanlılıq müəyyənləşmir. Məhz tanımaqla dinimiz imanlılığı əlaqələndirir.

Həzrət Əli (ə) buyurub: **"Elm - ilk yolgöstərən, tanıma isə onun son nöqtəsidir".**

Bilgi, məlumatlılıq ilk mərhələdirsə, son nöqtə tanımaqdır.

Yenə də Həzrət Əlidən (ə): **"Tanımaq - qəlbin işığıdır".**

İmam Əli (ə): **"Özünü tanımayan kimsə, başqasını necə tanıyacaq?".**

İmam Əli (ə): **"Kim nəfsini tanıdısa - onunla cihada qalxdı. Kim onu tanımadısa - onu özbaşına buraxdı".**

İmam Səccaddan (ə) mübarək bir dua çatıb: **"Bizi özünü tanıyanlardan, öz yerlərindən əmin olanlardan və (nəticədə) buna görə də ömürlərini Sənə ibadətdə və bəndəlikdə keçirənlərdən et!".**

**Allah Təala cəmi insanlara bu mübarək duada göstərilən sifətlərə malik olmağı nəsib etsin! Amin!**

# YENİ MÜSAVAT

Son səhifə

N 13 (6902) 19 yanvar 2018




## Elektron siqaret 7 dişini itirməyə səbəb oldu

**Amerikanın Aydaxo ştatının sakini elektron siqaretdən əziyyət çəkib. Belə ki, siqaret onun ağzında partlayıb. Endrü Hall adlı şəxs işə hazırlaşdığı dəqiqələrdə evdə siqaret çəkirdi. Bir anda ağzında partlayan siqaret onun 7 dişini itirməsinə, üzündə yanıq izlərinin yaranmasına və dodaqlarının yanmasına səbəb olub. Onu dərhal stomatoloq yanına aparıblar və sonuncu ona amerikan yardımı edib. Hazırda zərərçəkən çətinliklə yemək yeyir.**

Holl sosial şəbəkədə elektron siqaretin partlaması ilə üzündə yaranan yanıqları nümayiş etdirən fotosunu paylaşıb. Amerikan kişi bildirib ki, o, alətin sıradan çıxması üçün heç nə etməyib. Bu fotonu izləyənlərin sayı isə 50 mini ötüb.

2016-cı ilin dekabr ayında isə Britaniyanın Lids şəhərində bir vətəndaşın cibində elektron siqaret öz-özünə partlayıb. Həmin vaxt kişi uşaq arabasının yanında olub. Xoşbəxtlikdən uşağa hər hansı xətər dəyməyib.

## Anası təmizlik xəstəsi olan uşaq... daha tez allergiya olur

**Türkiyəli alimlər gigiyena dəlisi olan valideynləri düşündürəcək yeni bir araşdırma hazırlayıb. Məlum olub ki, gigiyenik atmosferdə böyüyən uşaqlarda allergiya riski çoxdur.**



Ayaqyolulardakı gigiyena problemindən asılı olaraq bakterial infeksiya riski də böyüyür. Təmizkar ailədə böyüyən uşağın allergiyaya da meylliliyi varsa məktəbdə daha tez xəstəliyə tutula bilər.

Bundan başqa, şişman uşaqların da allergiyanı çox ağır keçirdiyi üzə çıxıb. Uşaqları allergiyaya meylli olan valideynlərin evdə siqaret çəkməməsi tövsiyə olunur. Alimlər bildirir ki, allergiyaya genetik bağlılığı olan və xüsusilə həssas böyüdülən uşaqların Günəş görən sinifdə oxuması məsləhətdir. Bundan başqa, həmin məktəbdə siqaret çəkilməməli və siniflərin havası tez-tez dəyişməlidir.

## Keçmiş sevgilisinə acıq etdi və tam 65 kilo arıqladı

**Sidney sakini keçmiş sevgilisinin acığına 65 kilo çəki atıb. 25 yaşlı Heyli Vestobi birinci ali təhsil zamanı çəkisini 119 kiloya çatdırıb. Qız fast-food-dan və alkoqoldan həddsiz dərəcədə çox istifadə edib. Bu, sevgilisi ilə dava edən günə qədər davam edib: "Biz hansısa axmaq məsələyə görə mübahisə edirdik. Birdən o qayıdıb mənə dedi ki, sənə arıqlamaq heç də mane olmaz".**

Davadan sonra avstraliyalı qız öz həyat tərzinə yenidən nəzər salıb və qərara gəlib ki, mütləq şəkildə arıqlamalıdır. Vestobi düzgün qidalanma üsuluna və idman zalında müntəzəm idman etməsinə görə arıqlaya bilib: "Ürəyimin dərinliyində bilirdim ki, o, mənə qarşı kobudluq etmək istmədi. Sadəcə, mənim kökəlməyimlə bağlı həyəcanını səsləndirdi".

Bu ilin yanvarında ABŞ sakini Katrina Rayford da 434 kilodan 177 kiloya qədər arıqlayandan sonra internetdəki tanışlıq saytlarında qeydiyyatdan keçərək özünə sevgili axtarmağa başlayıb.





## Öləndən 3.5 saat sonra dirildi, 10 gün sonra isə dünyasını dəyişdi

**İstanbulda bir xəstə saat 11.00-da öldü və morqa aparıldı. Amma saat 14.30-da cənazəni götürmək üçün morqa gedən yaxınları adamın nəfəs aldığını fərq etdi. Xəstə dərhal reanimasiyaya aparıldı. Ancaq 10 gün yaşayandan sonra yenə öldü.**

Həkimlər isə bildirdilər ki, onu ilk dəfə xəstəxanaya gətirəndə 40 dəqiqə boyunca canlandırma əməliyyatları aparsalar da, hər hansı nəticə ala bilməyiblər. Türkiyənin "Habertürk" qəzeti yazır ki, bu tip hadisələr "oto-resusitasyon" və ya tibb terminologiyasında "Lazarus fenomeni" olaraq adlandırılır. Yəni ölüm baş tutur, amma bir müddət sonra heç bir müdaxilə olmadan xəstə geri qayıdır və ürəyi döyünməyə başlayır.




**QOÇ** - Bu təqvimdə gücünüz artdığından bütün vacib planlarınızı yavaş-yavaş həyata keçirməlisiniz. Yalnız maliyyə məsələləri ilə bağlı ehtiyatlı olun. Nahardan sonra uzaq səfərə cıxmaq planlarınızı gerçəkləşdirin.

**BUĞA** - Qarşınızda neytral bir gün durur. Hər hansı sürpriz və ya uğursuzluq gözlənilmir. Yaxşı olar ki, gün ərzində yalnız adi işlərin həlli ilə məşğul olasınız. Yaxın məsafəyə səfər etmək də olar.

**ƏKİZLƏR** - Əsas məqsədi işgüzar sövdələşmələrə yönəldin ki, gələcək perspektivlərinizə yol açılsın. Ulduzlar təvəqqe edir ki, bu gün heç kimə yalan vədlər verməyəsiniz və təşəbbüskarlığı əldə saxlayasınız.

**XƏRÇƏNG** - İxtiyarınızda olan bu günü çox rahat şəkildə başa vuracaqsınız. Maddi müstəvidə qazanmaq imkanlarınız da var. Ən başlıcası, ulduzlar aldığınız bütün təkliflərə razılıq verməyinizi təvəqqe edir.

**ŞİR** - Dəyişkən fikirli insanlarla hər hansı bir işbirliyinə getməyin. Özünüzü qiymətli tutun. Saat 10-11 və 17-19 aralığında ağlınız kəsməyən bütün müzakirələrdən vaz keçin. Axşam gəzintisi yaxşı olar.

**QIZ** - Ürəyinizdən Tanrı eşqini çıxarmayın, müqəddəs yerlərə baş çəkin, ətrafınızda olan hər kəsə xeyirxahlıq göstərin. Yalnız bu halda uğurlarınız arta bilər. Bu gün uzaq səfərləri mümkün qədər təxirə salın.

**TƏRƏZİ** - İstənilən situasiyada reallığa uyğun addım atın. Hər hansı qərəz nümayişi yolverilməzdir. Bu gün üzərinizə ağır öhdəliklər də götürməyin ki, dostlar yanında nüfuzdan düşməyəsiniz.

**ƏQRƏB** - Astroloji göstəricilər əsəblərinizin xeyli sakitləşdiyindən xəbər verir. Bu isə böyük işlər görməyinizə stimul verəcək. Odur ki, proqnozumuzdan xəbər tutan dəqiqədən hərəkətə keçin. Riskdən qorxmayın.

**OXATAN** - Köhnə mübahisələrə, yarıtmaz tərəfdaşlarla haqq-hesab çürütməyə vaxt itirməyin. Yalnız böyük ideyalarınız barədə düşünün. Bunu bacarsanız, saat 15-dən o tərəfə uğurlar sizi müşayiət edəcək.

**OĞLAQ** - Bürcünüzün sonuncu tam təqvimini yaşayacaqsınız. Bu səbəbdən də nəzərdə tutduğunuz planların icrasını sürətləndirin. Ələlxüsus da şəxsi büdcənizi artırmağa çalışmalısınız.

**SUTÖKƏN** - Bürcünüzün Zodiakda hökmran olmağa hazırlaşması sizə əlavə stimul verəcək. Amma gərək riskli addımlardan çəkinəsiniz. Saat 14-dən sonra bir neçə sürprizlə rastlaşma ehtimalınız var. Qidanıza fikir verin.

**BALIQLAR** - Çalışın ki, fəaliyyət və qarşılıqlı münasibətlərdə yanlışlığa yol verməyəsiniz. Əks təqdirdə ciddi problemlərlə rastlaşa bilərsiniz. Bu gün mənəvi dəyərlərə və hörmət qazanmağa daha çox üstünlük verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu kamera keçmişdəki hadisələri də çəkir



**Yeni yaradılan Roader adlı kamera daim çəkmək özəlliyi sayəsində həm anı, həm də keçmişi çəkə bilir. Qeydiyyat düyməsinə basılandan sonra yaddaşından 10 saniyəyə qədər geriyə gedə bilən kamera bunun sayəsində keçmişi də yaza bilir. Kameranın işləmə prinsipi daim yazmaqla bağlıdır. Görüntüləri 10 saniyəliyinə yaddaşında tutan bu kamera ilə yazmaq istədiyiniz bir anın əvvəlini də əldə edə bilirsiniz. Elektron cihazlara bluetooth ilə bağlanan alət cib telefonundan bir az daha kiçik ölçülərə sahibdir.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100